

***"Azərbaycan" qəzetinin 316-cı nömrəsinin 1-ci səhifəsi***





**Cümə, 7 noyabr 1919-cu il, nömrə 316**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Cümə, 13 səfərül-müzəffər sənə 1338. 7 təşrini-sani 1919 sənə.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 3 manat.**

**Abunə şəraiti: Qeyri şəhərlər üçün 1 aylığı 70 rublə, 2 aylığı 130 rublə, 3 aylığı 180 rublə. Bakı üçün 1 aylığı 60 rublə, 2 aylığı 110 rublə, 3 aylığı 150 rublə. Abunə şəraiti ancaq həmin sənə yanvar ayının 1-nədək heasb olunur.**

**Elan fiatı: birinci səhifədə sətri 8 rublə, axırıncı səhifədə sətri 6 rublə, itən şeylər və yer axtaranlar üçün 4 rublə axırıncı səhifədə, 6 rublə birinci səhifədə.**

* * *

Bakı Müsəlman-Cəmiyyəti-Xeyriyyəsi müsəlman qəbiristanında Bakı şəhəri uğrunda şəhid olan müsəlman əsgərləri qəbiri üzərində abidə inşa etmək podratını götürmək istəyənləri dəvət edir. Çertyoj və şəraiti görmək istəyənlər hər gün saat 11-dən 1-ə kimi Cəmiyyətin Vrangelski və Spasski küçələrinin küncündə Krasilnikovun evində olan dəftərxanasına müraciət edə bilərlər. Xahiş edənlər təkliflərini işbu təşrini-saninin 14-dən gec olmamaq şərti ilə məzkur [deyilən] dəftərxanaya verməlidirlər.

*T-333*

* * *

Mühəndis Ağalar bəy Mahmudbəyzadənin "Lyuks" adlı texnika kontorası möhtərəm müştərilərə elan edir ki, evlərdə və xüsusi mənzillərdə su yolları (vodoprovod) və xüsusi su yollarını Şollar yoluna nəsb etmək [birləşdirmək] işlərini qəbul eyləyir.

Ünvan: Starı poliseyski və Baryatinski küçələrin tinində "Lyuks" kontoru. Telefon nömrə 43-96 və 45-25.

*14020*

**ELAN**

**Maliyyə naziri tərəfindən**

Azərbaycan Dövlət Bankının Gəncə şöbəsi bu noyabr ayının 9-dan etibarən işə şüru edib [başlayıb] və bankın nizamnaməsi mövcibincə [nizamnaməsinə əsasən] hər növ müamilatda [əməliyyatda] bulunacaqdır.

*Maliyyə naziri: Ə[li] A[ğa] Həsənov*

*T-322*

**DÖVLƏT TEATROSU**

**Azərbaycan Dövləti Teatro heyəti**

Cümə günü təşrini-saninin (noyabrın) 7-ndə axşam Dövlət Teatrosunda mövqeyi-tamaşaya qoyulacaqdır "Nadir şah", Nəriman Nərimanovun əsəri, dörd məclis, yeddi şəkildə. Tamaşa başlanacaq axşam saat 8 tamamda. Biletlər teatrın kassasında satılmaqdadır. Rejissor A. A. İvanov, müavini-rejissor Hacıbaba Şərifov, növbəti rejissor A. M. Şərifzadə. Gələcək tamaşa təşrini-saninin (noyabrın) 11-də "Trablis müharibəsi və yaxud Ulduz". Mövqeyi-tamaşaya qoyulmaq üçün hazırlanır: "Dövləti-bisəmər", "Əlmənsur", "Qaçaqlar", "Otello" və "Hamlet".

*Dövləti Teatro vəkili: M. Ə. Sidqi*

*T-320*

**SİRK "MODERN"**

Cümə günü noyabrın 7-ndə 1919-ncu ildə məşhur sportsmen Pyotr Nikolayeviç Yelizarov tərəfindən mükəmməl surətdə təşkil edilmiş Fransa güləş mübarizəsinin mabədi [ardı].

Bu gün 3 cift pəhləvan mübarizə edir.

1-nci: Türk mübarizəsi Gənc Əli – Karl Muznik; 2-nci: Qəti mübarizə Boqatıryov – Naməlum; 3-ncü: Qafqaz mübarizəsi Staroşvili – Student.

Pəhləvanların çıxışı və mübarizənin başlanması saat 11-in yarısında. Tamaşa başlanacaq 8-də. Mübarizə Yelizarovun təhti-nəzarətində [nəzarəti altında] olacaqdır.

Elan: Bu günlərdə camaatın sevgilisi Həsən Kostvinin benefisi olacaqdır.

*14019*

**ÇÖRƏK BAHALANMASI**

Neçə vaxtdan bəri istər hökuməti, istər əhalini əndişələrə salmaqda olan çörək bahalanmasının ən ümdə səbəblərindən başlıcası aşkara çıxdı. Bu səbəbi nəzərə alarkən bir tərəfdən şükür etmək lazım gəlir, amma digər tərəfdən qızmamaq, mütəəssir və mütəğəyyir olmamaq da [halı dəyişməmək də] qabil deyildir.

Şükür etmək lazımdır ki, çörək bahalanmasının baisi qəhətlik və taxıl qəhətliyi deyildir. Azərbaycanda mövcud olan taxıl sair cümhuriyyətlərə nisbətən boldur, o qədər boldur ki, bütün əhalini görər, münasib qiymətə çörək yedirdər və bu kimi həyat və məişət üçün ən zəruri olan azuqədən kimsəyə bir korluq çəkdirməz.

O halda Azərbaycanda çörək bahalanması süni və qeyri-təbii bir haldır. Doğrudan da öylə imiş. Ticarət Nəzarəti tərəfindən qurulmuş şurada – ki təfsilatı bugünkü nömrəmizdə mündəricdir [dərc olunub] – bahalıq səbəblərinin ən başlıcası ehtikar olduğu aşkara çıxır.

İştə qızmaq və mütəəssir olmağımız da bu üzdəndir. Vətənimizdə öylə vücudlar var ki, pul-para qazanmağa əşədd [şiddətli] dərəcədə həris olduqlarından, vətən mənafeyini bu yolda qurban etmək tamahkarlığına qədər varır və qəlbində heç bir vicdan sızıltısı hiss etmədən böylə böyük bir xəyanət irtikabına [işləməyə] cəsarət edirlər. Bir çoxları bədbəxtanə öz millətimizə mənsub olan bu vicdansızlardan ötrü heç bir əziz və əqdəs [müqəddəs] şey yoxdur – məgər para. Vətən məhəbbəti, millət təəssübü, dövlət qeydkeşliyi bunların ürəklərinə yabançı və biganə olan hissiyyat qəbilindəndir. Çörək bahalığı cavan hökumətimizi – onsuz da mühüm işləri çox olduğu halda – yeni müşkülatlara sala bilər fikri, əhali üsrətə [çətinliyə] düçar olar təsəvvüratı bunların başına girməz, çünki bu baş yalnız bir fikirlə məşğuldur ki, o da pullanmaqdan ibarət olsun.

İştə, pullanmaq hirs və tamahı saiqəsi [sövqü; səbəbi] ilə vətənimizin öz əhalisi üçün mədari-məişət [dolanacaq vasitəsi] olan taxılını müxtəlif hiylələrlə yığıb, vətəndən dişarı çıxarıb, özgələrə satıb mənfəət görürlər. Müştəriləri də düşmənimiz olsun, dostumuz olsun, kim olurolsun təfavüt yoxdur, təki para verən olsun.





Vətən mənafeyini paraya satan, əhalimizi üsrətə düçar edən və bu yolla məmləkətimizdə müşkülat törədən ehtikarçılara "dövlət xaini" deyə hökm vermək caizdir. Ona görə, böylələrinin cəzası da xəyanət cürmünün [cinayətinin] icab etdiyi [zəruri hala gətirdiyi] cəzadan ibarət olmalıdır.

Azərbaycanda heç bir şeyin bahalığı çörək bahalığı kimi fəna nəticə verməz. Çünki camaatımız, baxüsus kənd əhli və füqərayi-kasibə [proletar] sinfi məhz çörək ilə dolanmağa adət etmişdir. Bəzi yer var ki, düyü, kartof və peyğəmbəri [qarğıdalı] ilə də dolana bilər. Halbuki Azərbaycan xalqı ancaq taxıl çörəyinə öyrənmişdir və mədari-məişəti ancaq budur. Azərbaycan füqərayi-kasibəsi ətsiz dolana bilər, amma çörəksiz dolanmaq mümkün deyildir. Odur ki, baha qiymətə çörək almağa qadir ola bilməyən camaat qarın toxluğu görməyib, yarımac qalacaqdır. Bu hal isə, yəni qidanın kifayətsizliyi cürbəcür naxoşluqlara səbəbiyyət verib, əhalini fəlakətlər və hökuməti də təzə müşkülat qarşısında müztərib [narahat; iztirab çəkən] qoyar.

Fövqəlzikr [yuxarıda deyilən] şuranın çörək bahalığını rəf etmək [aradan qaldırmaq], ehtikara qarşı şiddətli bir mübarizə açmaq və hökumət əlində çörək ehtiyatı tədarükünə mübaşir olmaq [girişmək] kimi qərarları məqul [ağlabatan] və vacib tədbirlərdir. Bu tədbirlər mütləqa qəbula keçməli və bilatəxir [dərhal] icrasına şüru edilməlidir [başlanmalıdır]. Bu xüsusda əhali dəxi bacara bildiyi köməyi bu mühüm işlə əlaqədar olan hökumət əzalarından [üzvlərindən] müzayiqə etməməlidir [əsirgəməməlidir].

*Ü. Hacıbəyli*

**TELEQRAF XƏBƏRLƏRİ**

*(Azərbaycan simsiz mövqifi tərəfindən qəbul edilmişdir)*

6 təşrini-sani

*(Bolşevik xəbərləri)*

**Hərbi əməliyyat**

Fin körfəzi səvahili [sahilləri] dairəsində bizim qoşunlarımız Peterqofdan 20 fərsəx cənub-qərbə olan bir neçə kəndləri işğal etmişlərdir.

Yamburq cəbhəsində - Bizim hissələrimiz Qatçinanın 15 fərsəx qərbində və Krasnoye Selonun 20 fərsəx qərb tərəflərində olan xətlərə gəlib çatmışlardır. Vindava dəmiryolu xəttində tərəfimizdən Virisa mövqifi [stansiyası] işğal edilmişdir.

Luj dairəsində bizim yürüşümüz ciddiyyətlə davam edir. Hissələrimiz tərəfindən Vindava dəmiryol mövqifi Novinka və Luqadan 30 fərsəx şimala olan Varşava dəmiryol xətti mövqifi Mışinskaya işğal edilmişdir.

Qdov dairəsində - Bizim qoşunlarımız Qdovdan 40 fərsəx cənub-şərqə olan bir neçə kəndləri işğal etmişdir.

Marienburq cəbhəsində - Varşava dəmiryol xəttindən 50 fərsəx qərbdə vuruşmalar davam edir.

Polotsk dairəsində - Bizim qoşunlarımız Uşaça nəhri cənubuna tərəf və Polotskun qərbində yürüşlərində davam edirlər.

Sefsk dairəsində - Sefskin şimal və şərq tərəflərində vuruşmalar davam edir.

Kursk cəbhəsində - Bizim hissələrimiz Kursk dəmiryolundan şərqə və dəmiryolu boyu ilə düşməni sıxışdırmaqdadır.

Livna dairəsində - Livenadan cənuba bizim hərəkətimiz davam etməkdədir. Şəhəri almaq üçün tərəfimizdən edilən hücumda düşmənin 2 Alekseyev alayı məhv edilmiş, 400 əsir və 9 mitralyoz, araba və qeyri qənimətlər alınmışdır.

Novoxopyorsk dairəsində - Bizim qoşunlarımız düşməni pərakəndə edərək, Xopyor üzərinə yürüşlərində davam edirlər.

Ust-Buzuluk dairəsində - Süvarələrimiz yoldaş Dumenkonun komandası altında Alekseyevka mövqifi ətrafında düşməni bilkülliyyə məhv etmişdir. Min nəfər əsir, 50 mitralyoz, 20 top, 600 araba və bir çox qənimət almışdır. Yürüş davam edir.

Petropavlovsk dairəsində - Qoşunlarımız Petropavlovskdan 40 fərsəx şərqə olan Karakumulski mövqifi tərəfə vuruşmalarla hərəkət etdilər.

İşim dairəsində - İşim şəhərindən 30 fərsəx cənubda tərəfimizdən bir neçə kənd işğal edilmişdir. 500-dən yuxarı əsir və külli qənimət alınmışdır. Gecə təşrinisaninin 5-də qoşunlarımız müzəffəranə bir surətdə İşim şəhərini işğal etdilər.

Tobol dairəsində təbəddülat [dəyişiklik] yoxdur.

**Tolstoy arvadının vəfatı**

Tula - Yasnaya Polyanada Lev Nikolayeviç Tolstoyun dul qalmış arvadı vəfat etmişdir.

**"Qırmızı Petroqrad" günü**

Samarada "Qırmızı Petroqrad" günü təşkil edilmişdi. O gün nəhayət müvəffəqiyyətlə keçdi. Külli surətdə taxıl cəm edilmişdir. Həman gündə kəndçilər iştirak edirdilər. Samara Şurası ümumi təlimdən ötrü əmələ alayları tərtib verməyə qərar vermişdir.

Çelyabinsk - Kolçak tərəfdarı olan "Posledniye izvestiya" qəzetəsi xəbər verir ki, Blaqovensk və Alekseyevka şəhərlərində iğtişaşçılarla mübarizədə bulunmaqdan ötrü əhalidən 24 yaşına qədər olanlar dəvət edilirlər.

**Sağmal inək**

Nauen - Berlin qəzetələri işar edirlər [xəbər verirlər]: İngiltərə cəmiyyətlərinin nümayəndələri Müttəfiqlərin Almaniyadan qırx min südlü inək tələbatına qarşı etirazda bulunmuşlardır.

**Rusiya-Almaniya zülümləri**

Stokholm - Varşavadan verilən xəbərlərə görə Bermont qoşunları Koven quberniyası Russeni işğal etmişlərdir.

Litva mühafizə əsgərləri şəhərdə tərksilah edilmişdir. Şavli-Tauraqe dairəsi Rusiya-Almaniya qoşunları tərəfindən işğal edilmişdir.

**Abluka əleyhinə etiraz**

Paris - İnsanların Hüquq Müdafeyi [Müdafiəçisi] cəmiyyəti Rusiya abluklası [blokadası] və bu ablukanın qövldən feilə qonulması [sözdən işə keçirilməsi] xüsusunda Almaniya ilə əqd edilən etilaf [imzalanan saziş] əleyhinə etiraz elan etmişdir.





**Müavinət istənilir**

Helsinqfors [Helsinki] - Murmanda vuruşmaqda olan rus ağ dəstələrinin buraya varid olmuş [gəlmiş] ərkani-hərb [qərargah] rəisi bolşeviklər əleyhinə mübarizədə müavinətdə bulunmaq üçün Finlandiya hökumətindən ricada bulunmuş və Finlandiya hökuməti bu ricanı rədd etmişdir.

**Afrikadan rus saldatlarının vürudu**

Qomel - Kiyev ağ qəzetələri işar edirlər ki, Sevastopola Denikin ordusuna daxil olmaqdan imtina edən və Müttəfiqlər tərəfindən Afrikaya göndərilmiş olan üç vapor rus saldatları varid olmuşlardır.

**Romaniyanın tələbi**

Qomel - Kiyev qəzetələrinin verdikləri xəbərlərə görə, Romaniya Qaliçə hökumətindən Kalamis və Stanislavovun təxliyəsini tələb edir.

**Macarıstanda**

Ağ qəzetələrdən olan "Kuryer polski" xəbər verir ki, Budapeştədən alınan məlumata görə, Macarıstan Cümhuriyyəti yeni siyasi hadisələr ərəfəsindədir. Romaniyalıların Budapeştəni buraxmaları haqqındakı məlumat təsdiq edilməyir.

*(Gürcü teleqraf acentəliyindən)*

**İngilislər Batumda**

Əksinqilabçı "Rus" qəzetəsinin sözünə görə, Batumdakı İngiltərə komandanlığı ingiltərə əsgərlərinin Batum nahiyəsini heç bir vaxtda buraxammayacaqlarını rəsmi surətdə bəyan etmişdir.

**İnqilab səneyi-dövriyyəsi**

Hamburqdan olan sosial-demokrat firqələri təşrini-saninin 22-ci gününü inqilabın səneyi-dövriyyəsi münasibətilə bayram etmək fikrindədirlər.

**Şimal-qərb cəbhəsində**

Finlandiyadan varid olan [gələn] xəbərlərə nəzərən, Şimal-qərb rus ordusu bir qədər Krasnoye Seloya yaxınlaşmışdır. Estoniya ordusu Mariya-Neqauzeni işğal etmişdir.

Finlandiyada olan İngiltərə hərbi heyətinin rəisi general Marş, İngiltərə bəhri [donanma] komandanlığı ilə bərabər Sülh Konfransına getmişlərdir. General Marş bir daha xidmətinə övdət etməyəcəkdir [qayıtmayacaq]. İngiltərə heyətinin yeni rəisi general Qof Finlandiyada olan Beynəlmüttəfiqin [Müttəfiqlərarası] heyətinin rəisliyinə təyin edilmiş olan fransız generalı Messelə tabe edilmişdir. Fransa ilə İngiltərə arasında Baltik səvahili məsələsində olan təzadi-rəy bərtərəf edilmiş [fikir ayrılığı aradan qaldırılmış] olduğundan, Rusiya tərəfinə Müttəfiqlər siyasətinin təbdilini [dəyişməsini] gözləmək olar.

*(Qafqaziyadakı Müttəfiqlər heyətinin radio xəbərləri)*

**Almaniya Kabinəsi**

Yeni təşkil edilmiş Almaniya Kabinəsinə Daxiliyyə naziri [Oygen] Şiffer və portfelsiz olaraq [Eduard] David daxil edilmişlərdir.

**Cəmahiri-Müttəfiqədə dəmiryollar**

Müharibə zamanında hökumət əlin-

də olan Cəmahiri-Müttəfiqədəki [Birləşmiş Ştatlardakı] dəmiryollar idarəsi 1 yanvar 1920 sənədən etibarən müharibədən əqdəm [qabaq] yolları idarə edən şirkətlərə qaytarılacaqdır.

**Fransa ordusu**

Fransa Məclisi-Əyanının [Senatının] Hərbi komitəsi Fransa ordusunun təşkili haqqında Pol Dumer tərəfindən tərtib edilən projenin baxılmasına şuru etmişdir [başlamışdır]. Projeyə baxılarsa, həqiqi xidmət vaxtı bir il əskilmişdir. Sülh zamanında Fransa ordusu üç yüz əlli mindən ibarət olacaqdır.

**Lenin haqqında**

Leninin iş başından düşürülməsi barəsində yenidən şayiat dövran etməkdədir. Stokholmdan "Morninq post" qəzetəsinin müxabiri Moskva və Krım diktatorluğu başında Dzerjinskinin olduğunu xəbər verir.

**Loris-Məlikov**

İstanbuldan Rusiyaya "Rus" vaporunda İkinci Aleksandrın məşhur müqərrəblərindən [sirdaşlarından] Fransa təbəəsi olan Loris-Məlikovun qardaşı oğlu getmişdir. Məzkur, Klemanso tərəfindən Rusiyaya mühüm bir məmuriyyətlə ezam edilmişdir.

*(İtaliya heyəti radio xəbərləri)*

**İtaliya dəmiryolları**

Bu yaxında lokomotivlərin neftlə yandırılacağına keçilməsi ehtimalı ilə Romaniyada külli surətdə neft almaq üçün Türüq və Məabir [Nəqliyyat və Rabitə] naziri tərəfindən bir komissiya təyin edilmişdir.

**QƏZETƏLƏRDƏN**

**Azərbaycan heyəti-mürəxxəsəsinin bəyanatı**

Fransa mətbuatının bəzi qismində əsilsiz xəbərlər nəşr edilməsinə görə, Azərbaycan heyəti-mürəxxəsəsi [nümayəndə heyəti] "Tan"da və başqa qəzetələrdə atidəki [aşağıdakı] məlumatı dərc etmişdir:

*"Azərbaycan, qiyam etmiş türklər və kürd tayfası ilə Ermənistana təərrüz [hücum] etmək niyyəti ilə heç bir dürlü etilaf əqd etməmişdir [saziş imzalamamışdır]. Azərbaycan bolşevik qarqaşıqlığı zamanı 1918-ci sənə hadisatının fədası olmuşdur. İki şəhər və 5 yüz köylərin təxrib edilməsi, yüz mindən ziyadə əhaliyi-islamiyyənin qətl edilməsi və ya vətənlərindən avara düşərək çöllərə dağılması, hələ maddi xəsarətləri söyləmədən, bunun üçün bir bürhani-qate [qəti sübut] ola bilər. Təşəkkül və təəssüs zamanından bəri Cümhuriyyətimiz daima sülhcuyanə ruhlu bir fəaliyyətdə bulunmuşdur. Hətta kəndisinə rəcəzxan [meydan oxuyan] olaraq qarşısında meydan oxunduğu zamanlarda da o, kəndi qonşularından heç birinin əleyhinə olaraq silaha sarılmaq fikrində bulunmamışdır.*

*Bu etidalpərvərlik [mötədillik] bir kərə daha Azərbaycan ərazisinin bir hissəsi (Naxçıvan və Şərur dairələri) ermənі cümhuriyyəti tərəfindən işğal edildiyi bu yaxın zamanda izhar edilmiş [göstərilmiş] və Azərbaycan Cümhuriyyəti Parlamanı və hökuməti Müttəfiqlər komandanlığı qarşısında protesto etməklə kafilənmişlərdir. Qafqaziya cümhuriyyətləri arasında Azərbaycan birinci olaraq Qafqaziya ölkəsində yaşayan dörd başlıca millət arasında səmimi yaxınlığın lüzumunu elan etmiş və hər bir münaqişəli məsələlərin həlli üçün həkəm [arbitr] üsulunu təklifdə bulunmuşdur."*

**Portuqaliyada inqilab hərəkatı**

İspaniya qəzetələrinin verdiyi məlumata nəzərən, Portuqaliyada inqilab hərəkatı gündən-günə kəsbi-şiddət etmədədir [şiddətlənməkdədir]. Tətilçilər Aveyruda sərnişin qatarını yoldan çıxarmağa sui-qəsddə bulunmuşlardır. 5 təşrini-əvvəldə [oktyabrda] fəhlə ittifaqları tərəfindən Lissabonda nümayişlər yapılmışdır. Polis müdaxilə edib, bir çox həbslər icra etmişdir.

**Norveçdə ispirtolu içkilərin mən'i**

"Tayms" qəzetəsində dərc edilmiş bir xəbərə nəzərən, 5 və 6 təşrini-sanidə [noyabrda] Norveç hökuməti ispirtolu içkilərin mən' [qadağan] edilməsi haqqında rəyi-amma [referenduma] müraciət edəcəkdir. Məmləkətin hər tərəfi ispirtolu içkinin lehinə və əleyhinə bəyaniəfkar edən [fikir bildirən] kitabça və vərəqələrlə dolmuşdur. 1916-cı sənə əvaxirində [axırlarında] ispirto satışı Norveçdə mən' edilmişdi. 1918-ci sənə baharında isə 12 faizdən ziyadə ispirtosu olan şərablar da mən' edilmiş imiş.

**İngiltərə-Yaponiya ittifaqı**

İngiltərə Yaponiya ittifaqının iqamə edilməsi haqqında dövran edən şayiələr münasibətilə "Dot-Elzen-zays" qəzetəsi yazır:

*"Cəmiyyəti-Əqvama [Millətlər Cəmiyyətinə] rəğmən Müttəfiqin [Müttəfiqlər] hökumətləri yeni ittifaqlar əqd edib [bağlayıb], əski ittifaqlarını da təzələyirlər. Hərgah Cəmiyyəti-Əqvam məfkurəsinin intişarını [yayılmasını] arzu edirlərsə, o zaman onun müəssisləri [təsisçiləri] bir az zaman irəli imperializm ədd [hesab] olunan binada o cəmiyyəti inşa etməməlidirlər."*

**Belçika və Almaniya sənaəti [sənayesi]**

Belçika Təmirat naziri Almaniyadan əmtəə alınmasını tüccarlara tövsiyə etmişdir. Belçika hökuməti Visbadendə Belçika müstəhlikinlərindən [istehlakçılarından] ötrü bir istixbarat odası [məlumat bürosu] təşkil etmişdir.

**Vaşinqtona alman mürəxxəsləri**

Vaşinqtona mürəxxəs [səlahiyyətli nümayəndə] sifəti ilə göndərilmək üçün atidə isimləri mühərrər zəvat [aşağıda adları yazılan şəxslər] Almaniyada intixab edilmişlərdir [seçilmişlər]:

Hökumətin rəsmi nümayəndəsi sabiq stats-sekretar doktor Avqust Soller, sabiq ərzaq nümayəndəsi Rudolf Vissel, Sənətkarlar [Həmkarlar] İttifaqı nümayəndəsi Qrossman və sahibkarlar nüma-

yəndəsi Hans-Krieqel Hemens. Mürəxxəslər məiyyətində əhli-xibrələr [mütəxəssislər, ekspertlər] də olacaqlardır.

**Amerikanın müharibəyə iştirak etməsinin tarixçəsi**

Amerikanın müharibəyə iştirak etməsinə dair Almaniyanın sabiq Vyana səfiri qraf [Botto fon] Vedel şimdiki Lehistan [Polşa] naziri və Avstriya-Macarıstan dövlətinin sabiq Vaşinqton səfiri [Adam] Tarnovskinin bəyanatını nəşr etmişdir. Tarnovski Amerikadan övdət etdikdə [qayıtdıqda] söyləmişdir ki, amerikalılar əvvəlcə sualtı müharibəsinə müstəhziyanə [rişxəndlə] baxırlardı. Öylə ki, təhtəl-bəhrlər [sualtı qayıqlar] tərəfindən gəmilərin qərq edilməsi çoxaldı, amerikalılar iztiraba düşdülər və İngiltərəyə nicat vermək üçün müharibəyə iştirak iqtizası [lazım gəldiyi] hiss edildi.

Tarnovskinin bəyanatına görə, sualtı müharibə və təhtəl-bəhrlər saiqəsi [səbəbi] ilə İngiltərənin müharibəni qeyb etməsi qorxusundan dolayı amerikalılar müharibəyə iştirak etmişlərdir.

Qraf Vedel böylə bir sual verir:

*"Amerikanın müharibəyə iştirak etməsi ingilis mühibbliyi [dostluğu] və alman düşmənliyi mahiyyəti daşımamışdırmı və Amerika iştirakı Almaniya üçün məqbul bir sülh məsələsində müsbət bir əhəmiyyəti haiz olmuşmudur [əhəmiyyət daşımışdırmı]?"*

**Almaniya üçün ərzaq**

Hülul etmədə [gəlib çatmaqda] olan qış üçün Almaniyanı kömür və yeralması ilə təmin etmək niyyəti ilə hökumət təşrini-saninin 5-dən 15-nədək sərnişin qatarları hərəkətinin münqəte edilməsini [kəsilməsini] elan etmişdir. Ancaq fövqəladə zərurət hiss edilərsə, fəhlələrin hərəkət etməsi istisna edilmişdir.

## İRAN İŞLƏRİ

**Yenə müfəttinlik**

"İran" qəzetəsi kəndi müfəttinliyində [fitnəkarlığında] həman davam edib gəlməkdədir. Bir vaxta qədər məzkur [adı çəkilən] qəzetə Azərbaycan dövləti tərəfindən İran rəiyyətlərinə əziyyət edildiyini göstərirdisə də, indi ondan daha da ziyadə və insanı rəncidə edəcək [incidəcək] yalan şayiələr dərc edir. Bir tərəfdən Bakıdakı İran konsulu ilə Azərbaycan hökuməti tərəfindən məşhur İran qulduru Hacı Baba xanın tövqif edilməsindən [tutulmasından] ötrü müttəfiqülhərəkə [birgə] ciddi tədbirlər ittixaz edilməsini xəbər verən bu qəzetə, digər tərəfdən Təbrizdən aldığı "xüsusi bir məktubunda" "Azərbaycan dövləti şahsevənləri İran dövləti əleyhinə tüğyana dəvət edir" kimi fitnəəngiz xəbərlər dərc edir.

Qəzetə yazır:

*"Çenin məlum mişəvəd şahsevənhara douvləte-Azərbaycan nesbət be douvləte-İran be-toğyan dəvət və təşviq mikonəd."*

Nə qədər rəzalət, nə böyük xəyanət!

Qarelər [oxucular] bugünkü nömrəmizdə oxuyacaqlar ki, Azərbaycan hökuməti bu vaxta qədər İran quldurlarını təqib etməkdən ötrü ciddi tədbirlər ittixaz edir və quldurları təqib etməyə sərhədə külli miqdarda strajalar [keşikçilər] göndərir.





Axır vaxtlar Hacı Baba xanı və adamlarını dərdəst etmək [ələ keçirmək] üçün Cavad uyezd naçalniki nə qədər səy etmiş və bu günlərdə məlumat alınmışdır ki, Hacı Baba xanın adamlarından on iki nəfəri tutulmuşdur və qalanlarını da axtarırlar.

Bugünkü nömrəmizdə göstərilir ki: Cavad uyezd naçalniki Bakı qubernatoruna məlum etmişdir ki, İran torpağına keçib və Azərbaycan sərhədində hərəkat və fəaliyyətə başlamış olan məşhur quldur Hacı Baba xanı tövqif etməkdən ötrü onun tərəfindən ciddi tədbirlər ittixaz edilmiş və hələlik onun adamlarından 12 nəfəri tövqif edilmişdir. Təqibat davam edir.

Bununla məlum olur ki, quldurları və ələlxüsus Hacı Baba xanı tutmaq üçün Azərbaycan hökuməti nə qədər səy edir nəinki ona müsaidət [icazə; imkan] göstərir. Şahsevənləri İran dövləti əleyhinə qaldıran Azərbaycan deyil, bəlkə Ərdəbildə bu günlərdə tövqif etdiyiniz rus bolşevikləridir, əfəndim.

**Rus bolşeviklərinin tövqifi**

Təbrizdən "İran" qəzetəsinə yazıldığına görə, bu günlərdə Ərdəbildə hökumət idarələri tərəfindən iki nəfər rus bolşevikləri tövqif edilmişdir. Onlar istintaqda məlum etmişlər ki, Rusiyadan gəlib Kiçik xanın köməyinə gedirlərmiş.

**Şahsevənlərlə vuruşma**

Təbrizdən alınan məlumata görə, hökumət qoşunları ilə şahsevənlər arasında şiddətli və qanlı müharibələr davam etməkdədir. Hökumət tərəfindən "Ərdəbil atryadı" və "Təbriz rotu" adlı iki dəstə qoşun iştirak edir. Şiddətli müharibələr hal-hazırda Əhər ətrafında davam etməkdədir. Hökumət qoşunları müdafiə halında bulunurlar. Qaracadağ dəstələri bu günlərdə hökumət qoşunlarına mülhəq olmuşlardır [qoşulmuşlar].

## BƏLƏDİYYƏ VƏKİLLƏRİ SEÇKİSİ
## BƏLƏDİYYƏ MƏCLİSİNDƏN NƏLƏR GÖZLƏYİRİZ?

Əvvəla ümum tarix və həyat, saniyən [ikincisi] də son iki-üç sənəlik təcrübə bizə göstərdi ki, bələdiyyə məclisləri yalnız bir şəhərin iqtisadiyyat və abadanlığı məsələləri ilə iştiğal etməyib [məşğul olmayıb], mədəni və ictimaidən başqa siyasi işlərdə dəxi böyük rol oynayırlar. Madam ki, böylədir, biz orada əyləşən vəkillərimizə də bir qədər artıq diqqət verməli, onlar[ın] nə kimi siyasət apardıqlarını və aparmalı olduqlarını nəzərdən keçirməliyiz. Bu məsələ ümum Azərbaycan bələdiyyə məclislərinə aiddir. Fəqət Bakı Azərbaycanın siyasi, ictimai, mədəni, iqtisadi və xüsusən ticarəti bir mərkəzi, həm də cavan Cümhuriyyətimiz paytaxtı olduğundan, şübhəsizdir ki, Bakıya ayrıca diqqət və əhəmiyyət verməlidir.

Aşkardır ki, biz ümum Azərbaycan şəhərlərində, xüsusən Bakıda cavan, çalışqan, çalışmağı bacaran, çalışmaq arzusunda bulunan, camaatın ehtiyaclarını yaxından görən, gördüyü ehtiyacları ödəmək arzusunda bulunan, arzusuna çatmaq yollarını aramağı bilən, aradığı yolu tapıb da o yol ilə müstəqimən

[düz] gedən demokratik birər bələdiyyə məclisi görmək istəriz.

Əvət, demokratik!

Fəqət demokratlığı Azərbaycan paytaxtında xidmət edib də Mayıs bayramı münasibətilə "Yaşasın Rusiya Şura Hökuməti" şüarı ilə çıxmaqdan ibarət bilənlərdən mütəşəkkil olmayıb, siyasi məsələlərdə paytaxtında bulunduğu məmləkətin istinadgahını təşkil edən və şəhər demokratiyasının [xalqının] ehtiyacını quru sözlər, gurultulu şüarlarla deyil, fəaliyyətlə ödəyəcək demokrat məsləkli birər Bələdiyyə heyəti-vükəlası [vəkillər heyəti] görmək istəriz.

Etiraf edəlim ki, bu vaxtadək Bələdiyyə Məclisi nə Azərbaycan hökumətinə qarşı vəzifəsini hüsn-ifa etmişdir, nə də Bakı demokratiyasına qarşı.

Çünki Bələdiyyə Məclisi "demokratlaşdıqdan" bəri nəinki demokratiyanın dərdi yüngülləşdirilməmişdir, hətta Nikolay dövründəki istehqaqlı (senzovik) Bələdiyyə Məclisindən qalmış bir çox yaxşı irslər dəxi bərbad bir hala gəlmişdir.

Məsələn, bir müddət şəhər "həqiqi demokratiya" əlində olan zaman ticarət bilfeil [faktki olaraq] durdurulmuş abadanlığa əsla diqqət verilməyərək qeyri-məmur [abad olmayan] məhəllələr xarabazara dönmüş, abad məhəllələr isə bərbad bir hala salınmışlardı. Demokratiya üçün ən lüzumlu bir şey olan konka dayandırılmışdı, məktəblər qapanmışdı...

Xülasə, şəhər öylə bir hala düşmüşdü ki, Allah əsirgəsin, əgər bircə il də onların əlində qalsaydı, bütün-bütünə bir xarabazar, bir məzbələ [zibillik] təşkil edəcəkdi. Nəhayət, Azərbaycan əlinə keçərkən, həman hər fürsətdən istifadə edib kürsiyi-xitabətə çıxaraq "füqərayi-kasibə" [proletariat] deyə bağıran demokratlar "füqərayi-kasibə"ni ac, çılpaq, başsız, sahibsiz qoyub ancaq şəhərdə olan pul və əşyanı götürüb qaçmağı qənimət bildilər.

Onlar nə üçün böylə etdilər, nə üçün camaatı bu halda qoyaraq başlarını götürüb qaçdılar?

Çünki kənardan gəlmiş, Bakı mənafeyinə yabançı, Bakı əhalisinə biganə, Bakı demokratiyasının dərdinə qala bilməyən yad adamlar idi. Onlara ancaq özünə yer bulmaq, bir qədər səs-küy salıb özünü camaat qeydkeşi göstərməklə bir mənsəb tapmaq, ciblərini həman "füqərayi-kasibə"nin pulu ilə doldurmaq lazım idi. Nə qədər mümkün idi etdilər və artıq böylə edəmməyəcəklərini gördükləri zaman talelərini başqa yerdə sınamaq lazım olduğunu dərklə, dərhal ayrı yer aramağa başladılar və camaatın pulunu, ərzağını da gəmilərə yükləyib qaçdılar və şəhərdə qalan demokratiyanın nə halda qaldığını və nə hala düşə biləcəyini heç də düşünmədilər, qeydinə qalmadılar.

Ona görədir ki, bu dəfə bələdiyyə vəkilləri seçdikdə öylə yabançılar, biganələr, "dil pəhləvanı" olan quru söz demokratlarını deyil, daima Bakıda olan (bakılılıq şərt deyil), Bakının mənafeyini kəndi mənafeyi qədər əziz tutan, Bakını kəndisinə bir mənbeyi-həyat sayan, Bakının abadlığı fikri ilə munis [ünsiyyət qurmuş], Bakıdakı ümum demokratiyanın dərdinə bir nəzərlə baxıb kəndisini vicdanən camaat hüzurunda məsul görən vicdan demokratlarını seçmək lazımdır.

*Xəlil İbrahim*

*Həftə felyetonu*

**HEKAYƏT**

Məşhədi Murtuza bazardakı alver işini tamam etdikdən sonra evinə qayıdıb, çörəyini yeyib, indi də çay içməyə məşğul idi.

Məşhədi Murtuzanın halına bələd olanlar onu bu anda görsəydilər sifətindən, oturuşundan və çay içmək ədayiməxsusəsindən onun "keyfi kök və damağı çağ" olduğuna hökm edərdilər və səhv etməmiş olardılar.

İspekulyatsiyası arzusuna müvafiq baş tutmuş və qalaq-qalaq pullara "mənimdir" deməyə haqq qazanmış olan bir abıvatelin [dar düşüncəli, cahil adamın] böylə bir müvəffəqiyyətdən sonra əlbəttə keyfi kök olacaqdır.

Məşhədi Murtuza nə qədər adi bir abıvatel olsa da, siyasiyyata biganə deyildi, lakin siyasiyyat cərəyanını qəzetələr vasitəsilə təqib etməyi xoşlamayıb, bu xüsusda ağızda danışılan sözlərə, yəni şayiat qəbilindən olan hekayələrə çox əhəmiyyət verərdi.

Məfkureyi-siyasisi bundan ibarət idi: şuluqluq olmasın! Azərbaycan istiqlalı haqqında nə fikirdə olduğunu bilmək üçün verilən suala: "Bacara bilsələr pis deyildir" cavabını verməklə özünün bu "iş"də əlaqədar olmadığını bildirərdi.

Xülasə, Məşhədi Murtuzanın halhazırda keyfi çox kök və istirahəti də həddi-kamalında idi. Bu keyfin bir az zamandan sonra pozulacağını və istirahətin haram olacağını işarə edəcək heç bir əsər və əlamət yox idi.

Nagah qapı açılıb Məşhədi Murtuzanın aşnalarından ən yaxını olan Salman oğlu Süleyman bir əndişə, bir halətlə içəri girib birdən-birə:

– Məşhədi Murtuza, deyirlər Denikin gəlir – deyərkən, Məşhədi Murtuza:

– Əşşi nə deyirsən?! – deyə Süleymana tərəf döndü və böylə qeyri-müntəzir [gözlənilməyən] bir hadisənin xof və əndişəsi təsiri ilə az qaldı ki, əlindən istəkanı yerə salıb sındırsın və 40 manat zərərə düşsün.

– Kim deyirdi? Haradan eşitdin? Haçan gəlir? – misallı suallar Salman oğlu Süleymanın üzərinə yağmağa başladı.

Süleymanın bu suallara verə bilmədiyi cavablardan Məşhədi Murtuzanın əhvalı getdikcə xarablaşıb, dəminki kef və istirahətdən əsər belə qalmadı; onun əvəzinə qorxu, vahimə və pərişanlıq əmələ gəlib, canını qara qayğu aldı. Çünki Salman oğlunun cavablarından böylə anlaşıldı ki, Denikin yüz min qoşunla gəlir, özü də həm qurudan və həm də sudan. Şəhəri topa tutub bir dənə də evi sağ qoymayacaq və şəhəri alt-üst edəcəkdir. Qurudan hücum edib kişi, arvad, hər nə var hamını qılıncdan keçirəcəkdir və birini də diri buraxmayacaqdır. O cavablardan əzcümlə [o cümlədən] bu da məlum oldu ki, Denikinin "əyriplan"ları dünən şəhərin yanında uçuşurmuşlar və hətta bomba dəxi salıbdırlar, ancaq Allahdan olan kimi açılmayıbdır.

Məşhədi Murtuza:

– Bu xəbəri haradan bildin? Bəlkə yalandır? – deyə biləcək qədər özünü toxtada bildi.

Lakin Salman oğlunun:

– Əşşi nə danışırsan? Şəhərdə məxluq hamısı bir-birinə qatışıbdır, – deməsi üzərinə Məşhədi Murtuzanın bilkülliyyə əl-ayağı boşalıb, boğazı qurudu və bir az bundan əvvəl mərdanə və amiranə bir səslə "Ay uşaq, mənə çay verin!" deyən ağızdan indi həzin, boğuq və bir sual çıxa bildi ki, bu idi:

– Fikrin nədir?

Bu sualın əqəbincə [ardınca] qorxu, iztirab ilə sararmış olan bir üz, üzərində ucu nazilmiş bir burun, yarım açılmış ağız, gah yəs [matəm], gah ümid, gah xof, gah rəca [gah qorxu, gah ümid] izhar edən iki dənə göz əlavə olaraq, Süleyman Salman oğluna tərəf döndü.

– Qaçmaq! Başqa əlacı yoxdur! – deyə Salman oğlu Süleyman cavab verdi və nəzərini pəncərə qabağında kamaliədəblə əyləşmiş olan pişik üzərinə ətf ilə [çevirməklə], etiraz qəbul etməyəcək bir vəziyyət aldı.

Məşhədi Murtuza etiraza cürət etmədi, fəqət qaçmaq deyən kimi Mart hadisatı bütün müsibətləri ilə məşhədinin gözü önündə təcəssüm etdi və qaçdığı günlərdə çəkdiyi əziyyətləri bir-bir xatirinə gətirməklə fikir dəryasına qərq oldu.

Arada bir ləhzə [bir an] sükut hökmfərma oldu [hökm sürdü] ki, bu əsnada pişik yerindən durub əllərini qabağa, ayaqlarını dala və quyruğunu yuxarı itməklə, o ki lazımdı bir gərnəşmə cimnastiki yapdı. Sonra silkindi və ondan sonra dönüb qapının yarım-açıq qalmış arasından sivişib getdi. Gedərkən, guya zəbani-hal [hal dili] ilə "Rəhmətliyin uşağı, genə qaçmaq?!" deyib başını buladı.

Pişiyi qapıdan çıxıncaya qədər nəzərləri ilə təqib edən Süleyman, Məşhədi Murtuzanın fikir etdiyinə diqqət yetirib:

– Daha fikir vaxtı deyildir, fürsət var ikən qaçıb qurtarmaq lazımdı, – dedi.

Məşhədi Murtuza:

– Sözüm yoxdur, ancaq bir dayıoğlu Fərəc ilə də məsləhətləşsəydik yaman olmazdı, – deyə zəif bir müqabilədə bulundu.

Süleyman Salman oğlu buna razı oldu:

– Onda, tez ol, dur gedək Fərəcin yanına! – deyib qapıya tərəf yönəldi.

* * *

Allahdan olan kimi, Fərəc özü bunların qabağına çıxdı. Firqə iclasından qayıdıb evə gedirdi. Məşhədi Murtuza pürvahimə [qorxu dolu] bir halətlə əhvalatı Fərəcə nəql edib, qaçmaq xüsusunda məsləhət istədi.

Fərəc güldü. Bunun gülməyi Məşhədi Murtuzanı bir qədər toxtatdı. Bu toxtaqlıq guya Məşhədi Murtuzanın gözlərini açdı və küçədə vaqe olanları göstərdi: Konkaların biri gedib, biri gəlməkdə idi. Milisiyalar çiynində tüfəng dayanıb, yanından keçən faytona baxırdı. Hambal divar dibində palanı üstünə əyləşib hərdəm əsnəyirdi. Qərəz, hər kəs öz işinə məşğul idi.

Bu əsnada bu üç nəfər qohumun diqqətini bir yandan eşidilən bir çox pürahəng sədalar cəlb etdi. Sədaları "taraptarap" gurultusu ilə mövzun addımlar səsi təqib edirdi. Oxuyanlar irəlilədikcə oxuduqlarının sözləri aydınlaşıb: "İrəli, irəli, Azərbaycan əsgəri"ndən ibarət olduğu anlaşıldı. Bir az sonra cavan əsgərlərimiz qəhrəmananə bir vəziyyət və zövqavər [zövq verən] bir nizamla səfsəf gəlib keçməyə başlarkən, Fərəc Məşhədi Murtuzaya müraciət edib:

– Böylə qəhrəman qoşunu olan adam qaçarmı?! – dedikdə, süngülü tüfəngləri parıldayan, addımları bərabər olaraq bir əndazə ilə irəliləyən və qəhrəmananə bir vəziyyətdə olan əsgərlərin görünüşü Məşhədi Murtuzanın ürəyini o qədər toxtaq etdi ki:

– Əşşi, zarafat eyləyirəm, qaçmaq nədir, zad nədir, kişi olan kəs də qaçarmı?! – deyə məhcub olduğunu [utandığını] göstərdi.

Cavan əsgərlərin ardınca könüllü dəstəsi keçməyə başladı. Bığlı-saqqallı kişilər, əllərində tüfəng, ağızlarında vətən zikri oxuya-oxuya nizamla keçərkən, Məşhədi Murtuza Fərəcə müraciətən:

– Dayıoğlu, bunlardamı bizim əsgərlərimizdir? – sualını verdi.

Fərəc bütün huşu-guşunu [bütün diqqətini] kəndi ticarətinə həsr edən Məşhədi Murtuzanın mühitdəki əhvaldan tamamilə bixəbər olduğunu görüb, onu işlərdən bir qədər vaqif etməyi lazım bildi və axırda söhbəti Könüllü təşkilatımıza çatdırıb dedi:

– Könüllü olmağın məqsədi budur ki, vətənimizə bir təhlükə ariz olarsa [üz verərsə], onu nəinki yalnız bizim övladımız olan əsgərlərimiz, bəlkə biz özümüz də müdafiə və mühafizəyə borcluyuq.

Məşhədi Murtuza fikrə getdi...

* * *

Bir həftə sonra idi ki, əsgərlərimiz, genə əqəbincə [ardınca] könüllü dəstəsi dümdar [arxa birlik, aryerqard] olaraq zikr oxuya-oxuya kamali-nizamla küçədən keçirdilər. Bunlara bir inşirahi-qəlblə [ürək açıqlığı ilə, fərəhlə] tamaşa edərkən, könüllülərdən bir nəfər qara saqqallısı ağzında "İrəli, irəli, Azərbaycan əsgəri" zikrini mərdanə bir səslə oxuyar və addımlarını arxadaşlarınınkına uydurmağa çalışarkən diqqətimi cəlb etdi. Bu əsnada Fərəc mənə tərəf yan alıb:

– Məşhədi Murtuzaya bax, mərhaba [bərəkallah, əhsən]! – deyərkən o könüllünün Məşhədi Murtuza olduğunu anladım. Məşhədinin əynindəki əsgəri əlbisənin onun ruhuna da böyük bir cəsarət vermiş olduğunu sifətindəki mərdanəlik asarından [izlərindən] görmək olardı.

*Hekayənəvis*

**TƏRBİYƏ SAYƏSİNDƏ QƏNAƏTKARLIQ**

Millətin sərvət və samanı [var-dövləti] artdıqca, maarif və mədəniyyəti də ona nisbət dərəcədə artar. Lakin hər mülk və malın davamı ilə bərabər, təzayüdü də [çoxalması da] əhalinin qənaətkarlığına vabəstədir [bağlıdır]. Millətin zənginliyi onun qənaətkarlığı ilə ölçülər. Böylə ki, dünyanın ən zəngin milləti qənaətkarlığın ən böyük tərəfdarı və şövqməndi [şövqlüsü; arzu edəni] olanlardır. Binaənileyh [ona görə], qənaətkarlığa adətlənmiş

yevropalılar tərbiyə vasitəsilə uşaqlarını bu adətə alışdırıb həvəsləndirirlər. Filhəqiqə [doğrudan da], sabahdan axşama qədər övladı üçün çalışıb pul və mal qazanan ataların özlərindən sonra bir bu qədər zəhmətin nəticəsi beş günün ərzində fövt [yox] və tarac olacaqsa, neyçin bu biçarələr əbəs yerə çalışırlar, ömürlərini zaye edirlər? Hərgah bu çalışqanlığın məqsədi sərvətin varislər əlində bəqa [əbədi qalması] və davamıdırsa, bu məqsədə nail olmaq yollarını xüsusi tərbiyə məsələlərində aramalıdır ki, bu da, məəttəəssüf [təəssüf ki], biz müsəlmanlarda hələ müşahidə edilməmişdir. Bir çox varlılarımız, təvangərlərimiz [dövlətli, güclü adamlarımız] olmuşdur ki, övladı üçün milyonluq miknət [vardövlət] buraxmışdır. Lakin qənaətkarlığa adətlənməmiş varislər bu hədsiz dövləti beş günün ərzində tarumar edib özgələrə möhtac qalmışlar. Bu gün onların evləri, karvansaraları, paraxodları bambaşqaların ixtiyarına keçmişdir. Pəs [deməli], övlad üçün pul qazanmaq hələ kifayət deyil. Lazımdır ki, qazanılmış pulu hifz etmək istedadını övladın qəlbində rəkz etdirməli [həkk etdirməli; yerləşdirməli] ki, bu da məhz tərbiyənin sayəsində hüsula gələr.

Yevropalılar uşaqlarının qənaətkarlığa alışmasının tədbirlərini ən xırda vaxtlardan başlarlar. Böylə ki, bir ailədə neçə nəfər çocuq olarsa, hər birinin özünə məxsus kitabçaları olar. Valideyn tərəfindən əta edilmiş "cib xərcliklərini" bu səbilər bihudə yerə xərcləməyib, birikdikcə aparıb kitabçaları ilə xəzinə və banklardakı əmniyyət sandıqçalarına [əmanət kassalarına] təhvil verərlər. Bu minval ilə ildə hər uşağın adına bir xeylaq pul cəmlənər. İyirmi ildən sonra hər çocuğun o qədər pulu olar ki, oğlan qismi bu pulla darülfünun təhsilinə davam edir, üç-dörd illik kursun məsarifini illərcə cəmlədiyi pullarla ödəyir.

Qız qismi isə həman yığdığı pullara cehiz tədarükü görüb qocasının evinə aparar. Bu üsul ilə çocuqlar həm qara gün qeydinə qalarlar, həm qənaətkarlığa alışarlar, həm də valideynin maddi ehtiyaclarına müavinətkar [köməkçi] olarlar.

Həqiqətən, böylə səbr və mətanətlə yığılmış pulun hər cəhətdən faydası çoxdur. Gündə bir şahı alıb xərcləməyən çocuqların kitabçasından qəflətən bir neçə min manat zühur edirsə, təvanasız [gücsüz; yoxsul] valideynin bundan nə dərəcədə məsrur [şad] qalacağını özünüz qiyas ediniz. Bu pul onların nəzərində tapılmış kimi görüləcəkdir!

Söz yoxdur ki, bu qədər tul [uzun] müddətin ərzində qənaətkarlığa qurşanmış uşaqlar axirüləmr [axırda] səmimən [ürəkdən] də qənaətkar olub, bihudə və əbəs işlərə də pullarını, mallarını sovurmazlar. Bu fəqərə [iş; məsələ] valideynin təşəbbüsatı ilə əncampəzir edilər [həllini tapar].

Bundan əlavə, məktəblərin də bu yolda xüsusi bir vəzifəsi vardır. Məlum olduğu üzrə, rus Maliyyə Nəzarətinin təklifi ilə məktəblərdə "qənaət" markaları satılardı. Şagirdlər məsarifdən artıq qalmış qəpik-quruşlarına bu markaları alıb xüsusi kartonlara yapışdırardılar. Markaların qiyməti bir neçə rubləyə vardığı zaman aparıb əmniyyət sandıqçalarına təhvil verərdilər ki, bu üsul ilə də şagirdlərin bir qədər pulları cəmləşirdi. Həm ailənin və həm də məktəbin ciddü-cəhdi ilə uşaqların qənaətkarlıq təcrübələri artaraq, sərvətin qədər və qiymətini ətraflıca düşünmüş olarlar.

Hərçənd bu məsələdə bəzi pedaqoqların təsəvvürü başqadır. Guya bu üsul şagirdlərin xəsisliyinə dəlalət edir. Lakin bu zənn, əvvəla yanlışdır (bunu sairləri etirazlarında qəvi [güclü] dəlillərlə sübut etmişlər); saniyən [ikincisi], bu zəndə olanların ədədi çox azdır ki, buna biz də tərəfdar deyiliz.

İştə, yeni nəsli qənaətə alışdırmaq üçün mənim də təklifim budur ki, səbi vətəndaşlarımız da qənaət işlərinə iştirak etməlidirlər ki, vaxtıyla vətənin mətin və möhkəm qənaətkarları olsunlar, pulun-malın qədrini anlasınlar. Böylə olarsa, əmniyyət sandıqçaları əhali arasında böyük bir şöhrət qazanıb etibarlanar, ümumiləşər və milliləşər ki, bu da amalımızın ən ucasıdır.

*Fərhad Ağazadə*

**NƏZARƏTLƏRDƏ**
**[NAZİRLİKLƏRDƏ]**

Bakı Ticarət və Sənaye İttifaqı, Ticarət və Sənaye Nəzarətinə məlum etmişdir ki, məmaliki-əcnəbiyyəyə mal aparmaq məsələsinin tez həll olunmasından dolayı Nəzarət[in] başqa-başqa əşxas ilə etilafa [şəxslərlə razılığa] gələcəyi məsələsi tüccar sinfinin təsvibinə [təsdiqinə; bəyənməsinə] səbəb olacaqdır.

Hər halda, xammalların aparılması zamanı vaqonların müsavi surətdə təqsim olunması [bərabər bölüşdürülməsi] üçün İttifaq xüsusi bir büro təşkilinin lüzumunu ehtimal edir. Büro vaqonların təqsimi ilə iştiğal edəcəkdir [bölüşdürülməsi ilə məşğul olacaqdır]. Büroya lazımi müəssisələr nümayəndəsi daxil olacaqdır. İttifaq büro məsələsinin təcili surətdə həll edilməsini rica etmişdir.

* * *

Maarif Nəzarəti eylül [sentyabr] ayında İstanbula xüsusi adam göndərmişdi ki, orada türk lisanında kitab almaqla, lazımi qədər Azərbaycana müəllim dəvət etsin. Müəllimlər edadi məktəbləri üçün çağırılmalı idi. Hal-hazırda müəllimlər varid olmaqdadırlar [gəlməkdədirlər]. Nəzarət varid olmuş müəllimin [müəllimlər] əfəndiləri təcili surətdə məkatibə [məktəblərə] təyin etməkdədir.

* * *

Darülfünun [Universitet] müdiriyyəti doktor (məşhur cərrah) Finkelşteyni darülfünun işlərindən ötrü Avropaya göndərir. Maarif Nəzarəti müdiriyyətə məlum etmişdir ki, mumaileyhə [adı çəkilən şəxsə] gündəlik 120 frank təyin edilmişdir.

* * *

Maarif Nəzarətinin Edadi məkatibi şöbəsi müdiri Həmid bəy Şahtaxtinski, Nurməhəmməd Şahsüvarov, Azad bəy Əmirov, Fətulla bəy Rzabəyov, Sultanməcid Qənizadə, Abdulla bəy Əfəndiyev, Səlimə xanım Yaqubova, Səlimə xanım Xuramoviç, Əhməd bəy Pepinov, Xədicə xanım Ağayeva, Nemətulla bəy Şahtaxtinski, Cabbar bəy Orucəlizadə, Səməd bəy Vəkilova müraciətlə rica etmişdir edadi məkatibin milliləşdirilməsi məsə-

ləsini layiqincə müzakirə və həll etmək üçün xüsusi bir komisyon təşkil edilir. Komisyon gələcək tədrisat sənəsinin əvaili [əvvəlləri] üçün lazımi materiallar hazırlamalıdır. Balada əsamisi məzkur [yuxarıda adları çəkilən] əfəndilər Komisyon işlərində iştirak etməyə dəvət edilirlər.

* * *

Darülfünun idarəsi Daxiliyyə Nəzarətinə müraciətlə məlum etmişdir ki, Darülfünun xidmətçilərinin bir çoxları mənzil bulmadıqlarından dolayı zəhmət çəkmədədirlər. [Bu vəziyyət] əlavə çağırılacaq müəllimlərin də gəlməsinə mümaniət [maneçilik] edir. İdarə Nəzarətdən rica etmişdir ki, bu xüsusda lazım gələcək tədabir ittixaz edilsin [tədbirlər görülsün].

* * *

Darülfünun idarəsi elam edir [bildirir] ki, Darülfünunun Tarix və ədəbiyyat şöbəsində işbu təşrini-saninin 15-dən gec olmamaq şərti ilə dərslərə şüru edəcəkdir [başlayacaqdır].

* * *

Gəncə qəzası əhalisi Kəndçilər İttifaqı vasitəsilə hökumət nəzdində zemstvo məsələsinin həll[i] və Məclisi-Müəssisanın tez çağırılması haqqında iqdamatda bulunmuşdur.

* * *

Daxiliyyə Nəzarətində məlumat alınmışdır ki, ehtikarçılar Qusar dairəsi və Lənkəran qəzasında böyük dəstələrlə taxıl və qeyri ərzaq almaqla qiymətin artmasına səbəb olurlar. Nəzarətdən tədabiri-lazimə ittixazı [lazım gələn tədbirlərin görülməsi] rica edilmişdir.

* * *

Maliyyə Nəzarətinin verdiyi məlumata nəzərən, işbu təşrini-saninin 9-da Gəncə şəhərində Azərbaycan Dövlət Bankının şöbəsi güşad ediləcəkdir [açılacaqdır].

## ÇÖRƏK BAHALANMASI HAQQINDA

Axır vaxtlar Bakıda və Azərbaycanın müxtəlif hissələrində çörək və taxıl qiymətləri artması və bunun get-gedə kəsbi-şiddət etməsi [şiddətlənməsi] ümum hökumət dairələrini və camaat müəssisələrini böyük təşviş və əndişələrə sövq etmişdir. Vətən və milləti fəqət puldan və sərvətdən ibarət bilən hariflər, bahalıq və aclıq kimi böyük və dəhşətli bir bəladan nələr, nə müsibətlər törəyə biləcəyini əsla düşünmək istəməyən alçaqlar Azərbaycanın tükənməz taxılını və qeyri mallarını əcnəbi məmləkətlərinə keçirməkdən çəkinməyirlər. Bunlar Azərbaycanın hər tərəfindən, ələlxüsus Salyan və Lənkərandan, digər tərəfdən Qazax və Zaqataladan külli miqdarda taxılı aparmaqda və bununla kəndi cibini doldurmaq məqsədilə Azərbaycanı aclıq bəlasına giriftar etmək məqsədində bulunurlar. Lənkəranın və Salyanın taxılı türkman lodkalarında İrana və hətta müsəlman qardaşlar Petrovskiyə Denikin üçün belə taxıl aparırlar.

Hökumət böylə hərəkati-xainanənin qabağını almağa ciddi surətdə çalışır və lazımi tədbirlər ittixaz edirsə də, lakin qurdlar kimi Azərbaycan füqərasının cəsədlərinə yapışmış olan ədnalar [alçaqlar] kəndi hərəkətlərindən əl çəkməyir və həman bir çox vasitələrlə işləməkdədirlər. Böylə hərəkət Azərbaycanın qatı düşmənləri və daima onun kötüyünə balta çalanlar tərəfindən vüqu bulsaydı, bəlkə bir o qədər də təəccüb və heyrəti mövcib [təəccüb və heyrətə səbəb] olacaq bir fəqərə [hadisə] olmazdı. Lakin böylə namərdcəsinə hərəkət və xəyanət edib adını islam qoyanlar və Azərbaycanın həqiqi oğulları adlananlar tərəfindən büruzə gəldikdə, insanı dərin fikirlərə və gələcəyimizin pək vəxim [qorxulu] və fəna bir surətdə olacağı ehtimalına sövq edir.

Əcəba, indi hələ taxıl məhsulunun tamamilə yığılıb qurtarmadığı bir vaxtda böylə bir bahalıq və bəlkə aclığa məruz qalarsaq, qışın o şiddətli və amansız günlərində nə edəcəyiz? O vaxt kim bizə çörək verəcək?

Vətənini və millətini istəyənlər çalışmalı və xain möhtəkirə amansız müharibə elan etməliyiz; ta ki, bununla minlərlə ailə və çocuqlarımızı aclıq bəlasından xilas edək.

İştə bu nöqteyi-nəzərlə də Ticarət və Sənaət Nəzarətimiz srağagün beynəddəvair [idarələr arası] təcili bir Şura dəvət edib, zeyldəki [aşağıdakı] qəti qərara gəlmişdir:

"Axır vaxtlar çörəyin və taxılın gündən-günə bahalanması və qiymətlərin get-gedə artması Azərbaycan Ticarət, Sənaət və Ərzaq Nəzarətinin diqqət və etinasını cəlb edərək, həmin məsələni müzakirə və böylə təhlükəli bir əhvalın bir an əvvəl rəf və izaləsinə [aradan qaldırılmasına və uzaqlaşdırılmasına] vasitələr aramaq qəsdilə noyabr ayının 4-də beynəddəvair təcili bir Şura dəvət etməyə məcbur oldu. Şurada Bakı İstehkamat dairəsi hərbi general-qubernatoru, Bakı qubernatoru və Bakı qradonaçalniki, Daxiliyyə, Hərbiyyə və Maliyyə nəzarətlərindən nümayəndələr iştirak edirlərdi. Uzun-uzadıya müzakirə və mübadileyi-əfkardan [fikir mübadiləsindən] sonra Şura böylə təyin etdi ki, taxıl qiymətlərinin artmasına birinci və başlı[ca] səbəblərdən onun qaçaq və gizli surətdə xaricə aparılmasıdır.

Taxıl Azərbaycandan gizli və oğurluqla olaraq İrana, Gürcüstana və Ermənistana aparılır. Buna da səbəb məzkur [deyilən] yerlərdə taxıl qiymətlərinin artması olmuşdur ki, möhtəkirlər oraya aparıb satırlar. İranda Azərbaycan bonlarının ucuz olması, Gürcüstan və Ermənistanda isə taxılın yoxluğu böylə səbəbləri daha da artırır. Ehtikarlıq tamahı və qazanc məhəlli [yerli] alış-verişçilərin vətən və millət qarşısındakı məsuliyyəti və vəzifeyi-milliyyələrini yaddan çıxarmağa yol verir və qazanc dalınca yüyürərək, cinayətkaranə bir surətdə öz vətənindən taxılı xarici məmləkətlərə aparırlar.

Buna binaən [buna görə], Şura böylə qərardad etdi ki, tezliklə sərhədi möhkəmləşdirib, Lənkəran uyezdindən [qəzasından] və Muğandan lodkalarla və hətta Azərbaycanın içərisinə belə, kənara taxıl çıxarılmasını qadağan etsin. Çünki Azərbaycanın şəhərlərinə aparmaq məqsədilə namərd və xain tacirlər taxılı xaricə – İrana və Petrovska aparırlar.

Şura qət edir [qərara alır] ki, bundan sonra məzkur [deyilən] yerlərdən taxıl çıxarılmasına ancaq müəyyən körpülər-

dən, müəyyən paraxodlarda paraxod cəmiyyətlərinin və kapitanların məsuliyyəti ilə ancaq taxılın Bakıya gətiriləcəyi şərti ilə icazə veriləcəkdir. Bakıdan başqa heç bir yerə taxıl buraxılmayacaqdır.

Müəyyən qərardadı pozanlar, kim olursa-olsun, ağır cəza və cəriməyə giriftar olmaqla bərabər, bütün mallarından məhrum ediləcəklərdir. Şura qərardad edir ki, körpülərdə və sərhəddəki dəmiryol mövqiflərində [stansiyalarında] hökumətin etimadını qazanmış olan şəxslərdən, taxıl yüklərinə baxmaq üçün xüsusi vəkillər təyin edilsinlər. Böylə vəkillərin sui-istemalına [sui-istifadəsinə] yol verməməkdən ötrü, onların təyini böyük diqqətlə icra edilib və öz qulluğunu doğru və həqiqi surətdə ifa etmək üçün böyük miqdarda məvacib və maaş təyin edilsin.

Bundan əlavə, Şura lazım bilir ki, Bakıdan aparılan taxıl və gətirilən yüklərə yuxarıdakı qaydanın tətbiqi ilə bərabər, dəniz sahillərində xüsusi gəmilərdən ibarət qaraqol gəmiləri təyin edilsin.

Bununla bərabər, Şura vacib bilir ki, Bakıda olan bütün taxılı və Bakıdakı böyük tacirlərin anbarlarında olan taxılı hesaba və siyahıya alsın. Ticarət, Sənaət və Ərzaq Nəzarəti tərəfindən Lənkəran uyezdi və Muğana göndərilən komissiyaya tapşırılsın ki, tezliklə qiymətinə etina etməyərək, külli miqdarda taxıl alsın. Çünki bir qədərdən sonra qiymətlərin daha da artacaq olduğundan böyük müşkülat törəyə biləcəkdir.

Bu vasitə ilə Nəzarətin ixtiyarında külli miqdarda taxıl ehtiyatı saxlamaq mümkün olacaq və bununla da bazarda qiymətlərin əskilməsinə müvəffəqiyyət hasil olacaqdır.

Axirüləmr [sonda], Şura vacib bilir ki, qaçqınların Bakıya buraxılmaları barəsində sadir olmuş qərardadi-məcburi [verilmiş məcburi qərardad] tezliklə qövldən feilə [sözdən işə] gətirilməklə, şəhərin müəyyən məşğuliyyətləri olmayan bir çox artıq şəxslərdən təmizlənməsi işlərinə şüru edilsin. Çünki əvvəldə buna səbəb şəhərdə mənzil böhranı göstərilirsə də, indi bir daha böyük səbəb əlavə edilmişdir ki, o da çörək azlığıdır.

Bu barədə Ticarət, Sənaət və Ərzaq Nəzarəti yuxarıda göstərilən nəzəriyyatı Maliyyə və İqtisad Komitəsinin səvabdidinə [təsdiqinə; qiymətləndirməsinə] təqdim edir."

## BAKI XƏBƏRLƏRİ

### Dövləti sənaye kursları

Hökumət tərəfindən güşadı [açılması] qəbul edilmiş dövləti sənaye kursları bu günlərdə fəaliyyətə başlayacaqdır.

Kurslar Bakı Sənaye məktəbi və Çornı-qorodda açılacaqdır. Hələlik makina və elektrik şöbələri açılır. Gələcəkdə bir çox digər şöbələrin də güşadı ehtimal edilir.

Kurslar 20 aylıq olub, ali məkatib kimi beş semestrə təqsim edilmişdir [ayrılmışdır]. Birinci semestrdə türkcə oxur-yazanlar qəbul olunacaqdır. Bu semestrdə cəbr, həndəsə, fizik, mexanik, türkcə, elektrik və başqa dərslər keçiləcəkdir. Leksiyaları müqtədir mühəndis və texniklər oxuyacaqlardır.

Qeyd və qəbul üçün bu gündən etibarən Bakı Politexnik məktəbində müəllim Babazadəyə müraciət etməlidir – səhər saat 8-dən 2-ədək, axşam saat 6-dan 7-ədək.

Fəhlə qardaşlarımızın və texnikaya həvəsi olan gənclərimizin yazılması mütəmənnadır [arzu olunur].

Elmlər türk lisanında keçiləcəkdir.

### Bələdiyyə İdarəsi və Neftçilər İttifaqı

Neftçilər İttifaqı Bələdiyyə İdarəsinə məlum etmişdir ki, 1919-cu sənəsinin 30 aprel əqdinə məbni [razılaşmasına əsasən], dəniz müəssisəsi Bibiheybətdə olan 65 desyatinlik torpaq Neftçilər İttifaqının Təsərrüfat şöbəsinə verilmişdi. Orada ehtimala görə, Bibiheybət fəhlələrinə məxsus evlər tikiləcəkdi.

Hal-hazırda həmin dairə müsəlman qəbiristanlığı halında qalmışdır ki, komisyonun işini müşkülləşdirməkdədir. Ehtimal üzrə müsəlman qəbiristanı həman torpağı qəsb etmişdir.

İttifaq Bələdiyyə İdarəsindən rica etmişdir ki, qəbiristan üçün başqa bir dairə təyin etsin və qəsb edilmiş torpağın qaytarılması haqqında lazımi tədabir ittixas edilsin [tədbirlər görülsün].

### Parlaman Komisyonlarında

Teatro biletlərindən alınan vergilərin azalması haqqında Maarif Nəzarətinin qanun layihəsi Parlamanın Maliyyə və Büdcə Komisyonunda qəbul edilmişdir.

### Qız qaçırılmışdır

Cavad qəzasının Milmanlı kəndində gecə saat on iki radələrində Mirzəxan Yarməhəmməd oğlu, Musa Eynulla oğlu, Övsət Əhmədağa oğlu və bir nəfər naməlum, kəndisi evdə olmayarkən Xəlil Muxtar oğlunun evinə daxil olduqda, arvadını tüfənglə hədələyib evdən 10,000 (on min) manat para və 19 yaşında bir qızını qaçırmışlar.

### Oğurluq

Qaç gün əqdəm [qabaq] Hacı Abdulla Rəhim oğlunun evindən (Nijni-Priyutski küçədə, nömrə 83) bir patefon oğurlanmışdır. Patefonun qiyməti 10,000 (on min) manatdır. Bu işdə şübhələnmiş qonşulardan bəzisi 4-cü Polis idarəsinə verilmişdirlər.

### Xaçmazda

Müşkür hissəsi pristavının dəftərxanası Xaçmaz istasyonundan Xaçmaz köyünə köçürülmüşdür.

### Müsəlman tələbələrinin iclası

Bu gün təşrini-saninin 7-də, axşam saat 5-də hökumət tərəfindən xarici məmləkətlərə göndərilən tələbələrin getmələri xüsusunda iclas təyin edilmişdir. Bu iclasda maraqlananların iştirakı mətlubdur [tələb olunur].

### Ümumi iclas

Noyabrın 7-də cümə günü səhər saat 10 tamamda Dum meydançasında Haşımovun mülkündə "Müsavat"ın otaqlarında Bakı türk mütəallim və mütəallimələrin [oğlan və qız şagirdlərinin] ümumi iclası vaqe olacaq.

Gündəlik məramnamə:

1. Yeni idarənin seçilməsi barəsində;
2. Mərkəzi Qafqaziya Komitəsinin seçkisi;
3. Məhəlli [yerli] Komitə və Qafqazya Komitəsinə müfəttişlərin seçilməyi;
4. Cari məsələlər.

Məsələlər mühüm olduğundan, yoldaşlardan acizanə rica olunur hamısı iclasa gəldikdə gecikməsinlər.

Qeyd: İclas dəvəti üçüncü dəfə olduğuna binaən [olduğuna görə], nə qədər əfəndi gəlmiş olsa, iclas qanuni hesab olunacaqdır.

**Yaşıl Qələm**

Cümə günü təşrini-saninin 7-də axşam saat 5-də Yaşıl Qələm dərnəyinin ümumi iclası təyin edilmişdir. İclas əski Dum meydançasında Haşımovun evində Könüllü təşkilatı və "Müsavat" firqəsi yerləşdiyi binada vaqe olacaqdır. İclasda dərnəyə aid bəzi məsələlərin müzakirəsi ilə ədəbi müsahibələr olacaqdır.

## BİRJADA

Bu gündən etibarən Bakı bonu Azərbaycanda və İranda tərəqqi edir [qalxır]. Bu cəhətdəndir ki, başqa paraların qiyməti tənəzzül etməyə şüru etmişdir [düşməyə başlamışdır]. Böylə ki, Kerenski minlik 990-1025 manata qədər, 250-lik kəndi qiymətindən 10 faiz və xırda 20 faiz əskikdir.

Nikolay 5 yüzlüyü 900-1600 manata qədər, yüzlüyü 250-350 manata qədər və xırdası 50-80 manata qədərdir. Türkiyə kağız lirəsi 200 manat və Zaqafqaz bonu min manata 10 manat fəzlədir.

Türkiyə altun lirəsi 780 manat, altun onluq 900 manat, imperial 600 manat və Avstriya altunu 1800 manatdır.

Gümüş manat 60 manat və xırda gümüş para 25 manatdır.

Bakı bonunun min manatı İranda 4 tümən 3 qran olmuşdur.

## FİRQƏLƏR VƏ CƏMİYYƏTLƏR

### "Müsavat"da

**Tərəfgirlik**

"Rus" cəmiyyətinin "Armeniya" adlı gəmisində işləyən İbrahim Sadıq oğlu nam bir fəhlə Türk Ədəmi-Mərkəziyyət firqəsi "Müsavat"ın Müsalihə və Mürafiə [Barışıq və Məhkəmə] şöbəsinə şikayət etmişdir ki, məzkur [deyilən şəxs], xidmətindən ixrac edildikdə kəndisini Həmkarlar İttifaqında yeni xidmətə təyin edilməsi üçün birinci növbəyə yazdırmışdır. Fəqət İttifaq idarəsi tərəfgirlik edərək bunu növbədən çıxarıb, yerinə bir rusu növbəyə salmışdır.

**Sükançıların mühakiməsi**

"Tula" gəmisində işləyən sükançılar xidmətlərindən ixrac edilmələrinə cəhət, "Müsavat"ın Müsalihə və Mürafiə şöbəsinə ərizə vermişlərdi. Altı nəfər sükançının işlərini təhqiqat etdikdən sonra böylə qərar verilmişdir.

Onlardan:

1) Bəhram Nəcəfəli oğlu; 2) Krasnov və 3) Əli Hüseyn oğlu qanuna müvafiq ixrac edilmişlərdir.

Lakin:

1) Süleyman Xankişi oğlu; 2) Süleyman Ata oğlu və 3) Ağa Rzaqulu oğlu biqanun ixrac edilmələri cəhətindən yenidən xidmətlərinə qəbul edilmişlərdir.

**Bibiheybətdə**

Bibiheybətdə "Lapşin" mədən müdiriyyətində işləyən Səlim Bədəl oğlu nam bir fəhlə iyirmi üç avqustdan "Müsavat"ın Müsalihə və Mürafiə şöbəsinə şikayət etmişdi ki, məzkur [deyilən şəxs], Emalatxana Komitəsi üzvü olduğu halda xidmətindən ixrac edilmişdir. Təşrini-saninin ikisində Müsalihə və Mürafiə şöbəsinin sədri təşəbbüsü ilə yapılmış mühakimə qərardadı mövcibincə [qərardadına əsasən], məzkur fəhlə xidmətinə qəbul edilmişdir.

**İranlıların Maarif Cəmiyyəti "Tərəqqi"də**

Bu gün təşrini-saninin 7-də axşam saat 4-də "İttihad" məktəbi binasında (Sadovı, nömrə 19) iranlıların Maarif cəmiyyəti "Tərəqqi"nin adi idarə iclası təyin edilmişdir.

Məsaili-yövmiyyə [gündəlikdəki məsələlər]:

1) Kişilərdən ötrü açılmış gecə məktəbi xüsusunda;

2) Cəmiyyətin Teatro şöbəsi;

3) Məsaili-cariyyə [cari məsələlər].

## AZƏRBAYCANDA

**Quldurlarla mübarizə**

Cavad uyezd naçalniki Bakı qubernatoruna məlum edir ki, Xocabəyli quldurlarının sərhəddəki kəndlərə hücumunun önü alınmaq üçün ciddi tədbirlər ittixaz edilib və bu məqsədlə sərhədə straja [keşikçi] dəstələri gətirilmişdir.

**Hacı Baba xan**

Cavad uyezd naçalniki Bakı qubernatoruna məlum etmişdir ki, İran sərhədinə keçib və əhalini qətl-qarət etməyə başlamış olan məşhur quldur Hacı Baba xanı tövqif etməkdən [tutmaqdan] ötrü lazımi tədbirlər ittixaz edilib və hələlik onun adamlarından 12 nəfəri tövqif edilmişdir. Qalanlarını axtarmaq və təqibat davam etməkdədir.

**Gəncədən**

Gəncə Kəndçi və Əkinçi İttifaqının 24 təşrini-əvvəl [oktyabr] tarixli iclasının məzbətəsidir [protokoludur].

Sədr: Əliş bəy Məhəmmədov.

Katib: Davud Cəfərli.

Saat 11-in yarısında sədr iclası açır. Əvvəl on dörd, sonra iyirmiyə qədər əfəndi hazır olur.

Gündəlik məsələlər:

1 – Köylərdə məktəb açılması;

2 – Maliyyə Komisyonu;

3 – Zemstvo [yerli özünüidarə qurumları] məsələsi;

4 – Məclisi-Müəssisan [Təsisçilər Məclisi] seçkiləri;

5 – Yer və su məsələsi;

6 – Qaçqınlar barəsində.

Birinci məsələ barəsində müzakirə başlanır. Lakin xalq məktəbləri müfəttişinin də hazır bulunması lazım görülür. Məktub vasitəsilə iclasa dəvət edilərək məktəblər barəsində məlumat istənilir. Müfəttiş əfəndi də məktəb olan köyləri nişan verərək, gələcəkdə köy məktəblərinin artırılacağını vəd edir. Yalnız köylülərin məktəblərə çocuq verməməsini və köy müəllimlərinə lazımi qədər hörmət olunmamasını qeydlə, bu xüsusda İttifaqın binagüzarlığını [addımlar atmasını] təmənna edir.

İttifaq isə bu qərara gəlir ki:

1) Hökumətdən para buraxıldığına görə, köylərdəki əski məktəblər remont olunsun;

2) Məktəb olmayan yerlərdə məktəb tikilsin;

3) Nərədə məktəb lazım olsa, müfəttişliyə xəbər verilsin;

4) Məktəb yaşında olan çocuqlar tamamən məktəbə verilsin;

5) Köy müəllimlərinə lazımi qədər hörmət olunsun;

6) İki müəllimə ehtiyac olarsa, ikinci müəllim barəsində müfəttişliyə xəbər verilsin;

7) Mərkəzi yerlərə poçta yapılması üçün İttifaq lazımi yerlərə müraciət etsin.

2 – Köylərə gedərək İttifaqa Maliyyə komisyonu seçmək üçün on bir adamdan ibarət bir heyət seçilir.

3 – Zemstvonun əmələ gəlməsi tez lazım olduğundan, Daxiliyyə Nəzarətinə bu barədə məlumat almaq üçün məşruhə [izahat] yazılacaqdır.

4 – Məclisi-Müəssisan seçkilərinə əcələ şüru edilməsi [təcili başlanması] üçün Daxiliyyə nazirinə və Heyəti-vükəla rəisinə [Baş nazirə] məşruhə yazılmalı.

5-ci məsələ təxirə salınır. Ümuri-Xeyriyyə və Nafiə Nəzarətinə [Sosial Təminat Nazirliyinə] qaçqınlara dair məlumat yazıldığından, altıncı məsələ də növbədən çıxarılır. Saat üçdə iclas qapanır.

*Sədr: Əliş bəy Məhəmmədov*
*Katib: Davud [Cəfərli]*

## GÜRCÜSTANDA

**Gürcüstan Dövlət Bankası**

Məclisi-Müəssisanın [Təsisçilər Məclisinin] Hüquq Komissiyasına Gürcüstan Dövlət Bankasının 50 milyon sərmayə ilə təsis edilməsi haqqındakı projesi idxal edilmişdir.

**Yeni bon buraxılması**

Yenidən Gürcüstan hökumətinə ikinci dəfə 300 milyon miqdarında bon buraxılmasına izin verilməsi məsələsi Məclisi-Müəssisanda müzakirə edilməkdədir.

**Kerenski pullarının qəbul edilməməsi**

Batum general-qubernatoru Kuk Koliss təşrini-əvvəlin [oktyabrın] 30-da verdiyi əmr mövcibincə [əmrə əsasən], Kerenskinin 20 və 40 manatlıqları Batum və Batum nahiyəsində qəbul edilməyəcək və dövləti, ümumi və xüsusi idarələr dəxi qəbul etməyə məcbur deyildirlər.

**Mühəndis Qasımbəyovun qətlinə dair**

Puşkin caddəsində qətl edilən mühəndis Xəlil bəy Qasımbəyovun qətlində şübhə üzərinə milis tərəfindən Karseladze və qatilin qaçıb gizlənmiş olduğu dükan sahibi çəkməçi Yeqiyev həbs edilmişdir.

## GÜRCÜSTAN İLƏ ERMƏNİSTAN ARASINDA MÜAHİDƏNAMƏLƏR

*1) Təşrini-sani [noyabr] 1919 sənə, Tiflis şəhərində*

Gürcüstan Cümhuriyyəti hökuməti tərəfindən təvkil edilmiş [vəkil təyin edilmiş] Daxiliyyə və Hərbiyyə naziri Noy Vissarionoviç Ramişvili və Gürcüstan Cümhuriyyəti Məclisi-Müəssisan rəisi





müavini Simon Qurgenoviç Mdivani bir tərəfdən və Ermənistan Cümhuriyyəti hökuməti tərəfindən təvkil edilmiş Stepan Qriqoryeviç Mamikonyan və Ermənistan Cümhuriyyəti Parlamanı üzvü Sumbat Arutyunoviç Xaçaturyan digər tərəfdən, vəkalətnamələri tədqiq edərək, onların lazım qaydada və həqiqi surətdə olduğunu öyrənib, aşağıdakı maddələrdən ibarət işbu müahidənaməni əqd etdilər [sazişi imzaladılar]:

1) Müahid [sazişə girən] dövlətlər (Gürcüstan və Ermənistan cümhuriyyətləri) məhud olurlar [öhdəlik götürürlər] ki, hazırda bulunan və irəlidə zühura çıxa bilən bütün münaqişləri kəndi aralarında etilaf təriqi [razılaşma yolu] ilə həll etsinlər. Hərgah etilaf mümkün olmasa, o zaman məsələ həkəm vasitəsilə həll ediləcəkdir.

2) Bu müahidənamə iki həftə vaxtla Tiflis şəhərində imza ediləcəkdir.

*2) 2 təşrini-əvvəl 1919 sənə, Tiflis şəhərində*

Gürcüstan Cümhuriyyəti hökuməti tərəfindən təvkil edilmiş Daxiliyyə və Hərbiyyə naziri Noy Vissarionoviç Ramişvili və Gürcüstan Cümhuriyyəti Məclisi-Müəssisan rəisi müavini Simon Qurgenoviç Mdivani bir tərəfdən, Ermənistan Cümhuriyyəti hökuməti tərəfindən təvkil edilmiş Stepan Qriqoryeviç Mamikonyan və Ermənistan Cümhuriyyəti Parlamanı üzvü Sumbat Arutyunoviç Xaçaturyan digər tərəfdən, vəkalətnamələri tədqiq edərək onların lazım qaydada və həqiqi surətdə olduğunu öyrənib, aşağıdakı maddələrdən ibarət işbu müahidənaməni əqd etdilər:

1) Ermənistan hüdudundan Ermənistan dəmiryolları ilə Gürcüstana nəql olunan və ya Gürcüstandan Ermənistan hüduduna göndərilən yüklər üçün və həmçinin Gürcüstan dəmiryolları ilə Gürcüstan hüdudundan Ermənistana nəql olunan və ya Ermənistandan Gürcüstana göndərilən mallar üçün azad tranzit qoyulur, yəni gömrük rüsumu verilmədən mallar keçirilir.

2) Bu müahidənamə üç sənə müddətinə əqd edilir. İmza edilən vaxtdan bir sənə keçdikdən sonra müahid tərəflərin hər birinə ixtiyar verilir ki, müahidənaməyə yenidən baxılmaq üçün elam etsin [bildirsin] və bu təqdirdə dəxi elam günündən etibarən altı ay vaxt müahidənamə kəndi qüvvəsində qalır. Hərgah, o vaxt içində yenidən müahidəni baxmaq üçün tərəfeyn [hər iki tərəf] etilafa gəlməzlərsə, o zaman müahidənamənin qüvvəsi kəsilmiş olacaqdır.

3) Bu müahidənamə iki həftə vaxtla Tiflis şəhərində imza ediləcəkdir.

*(Gürcüstan Xariciyyə Nəzarətindən)*

## ERMƏNİSTANDA

**Xatisova sui-qəsd**

İrəvanda nəşr olunan "Joxovrdi" qəzetəsinin axırıncı nömrəsində aşağıdakı əxbarat [xəbərlər] dərc edilmişdir ki, nə dərəcəyə qədər doğru olduğunu bilmədiyimiz halda, tərcümə ediriz:

"Şənbə günü 1 təşrini-sanidə Ermənistan hökuməti rəisi Xatisov Qarsa əzi-

mət etmək [getmək] üçün arabada dəmiryol mövqifinə [stansiyasına] gedərkən, yolda daşların arxasında gizlənmiş bir neçə adam görülmüşdür.

Onlardan ikisi milis tərəfindən tövqif edilərək [tutularaq], mütəbaqi [qalan] ikisi isə qaçmağa fürsət bulmuşdur.

Tövqif edilənlər müsəlmanlardır. Onlarda üç dənə əl bombası da tapılmışdır.

Onların Xatisovun həyatına sui-qəsd etmək niyyətində bulunduqlarını zənn edirlər. Tövqif edilənlərdən biri Abbas nam [adlı] şəxsdir ki, türk (tatar) agentliyi ilə məşhurdur və Şərura əslihə [silah] daşıdığı zaman dərdəst edilərək [ələ keçirilərək] Şərur həbsxanasında məhbus edilmişdi. Qaçanlardan biri Molla Hüseyn namdır ki, o da müsəlman qüvvələrini təşkil etməklə məşhurdur. Təhqiqat icra edilir."

* * *

1 təşrini əvvəldə hökumət rəisi Xatisov sübh qatarı ilə Qarsa əzimət etmişdir.

**Bitərəf məntəqə üçün şəkər**

Ermənistan Ərzaq naziri bitərəf məntəqə əhalisi üçün iki vaqon şəkər və iki vaqon duz buraxmışdır.

**Ümuri-Xeyriyyə naziri**

Ümuri-Xeyriyyə və Məsai [Sosial Təminat və Əmək] naziri doktor Babalyan təyin edilmişdir.

**Qəmərlidə**

Qəmərlidən xəbər verirlər ki, xəstəlik fövqəladə bir surətlə ətrafda kəsbi-şiddət etməkdədir [şiddətlənməkdədir]. Tibbi müavinət kafi qədər deyildir. Həkim və müalicəyə ziyadə ehtiyac vardır.

## İZHARİ-TƏŞƏKKÜR

Möhtərəm müdir əfəndi, "Azərbaycan" qəzetəsinin bir guşəsində bu bir qaç kəlməni dərc etməyinizi rica edirəm.

Bakı taciri Ağabala Quliyevdən bizim Cəmiyyətin idarəsinə varid [daxil] olmuş bəyanatda xəbər vermişdir ki, məzkur [adı çəkilən] Quliyev cənabları Bakı Cəmiyyəti-Xeyriyyəsinə 500,000 manat (yarım milyon) ianə etmişdir. Bu məbləğin 200,000 manatı Bakı alındıqda qəhrəman Qafqaz ordusunda döyüşən şühəda [şəhidlər] şərəfinə qəbiristanda təsis edilən abidə məxaricinə və qalan 300,000 manatı da 1918-ci ilin Mart hadisələrində Təzəpir məscidinin təxrib edilmiş hissələrinin təmiri üçün sərf edilməlidir. İanə edilmiş məbləğin 300,000 manatı[nı] məzkur Quliyev Bakı İstiqrazi-Mütəqabilə Bankında Cəmiyyəti-Xeyriyyənin hesabi-cariyyəsinə vermişdir və baqi [qalan] 200,000 manatını da bu günlərdə Cəmiyyətin sandığına təhvil verməyi vəd etmişdir. Mənim təhti-idarəmdə [rəhbərliyim altında] olan idarə Ağabala Quliyev cənablarından böylə bir böyük ianə verməsinə cəhət, məzkura səmimi izhari-təşəkkürlər etməyi kəndisinə vəzifəədd [hesab] edir.

*Bakı Müsəlman*
*Cəmiyyəti-Xeyriyyəsi sədri:*
*Qasım Qasımov*





## TEATRO VƏ MUSİQİ

Səşənbə [çərşənbə axşamı] günü axşam Hökumət Teatrosunda ərəb romançısı məşhur Corci Zeydanın sabiq Bakı qazısı Mir Məhəmməd Kərim tərəfindən tərcümə edilən "Kərbəla yanğısı" nam romanından Mehdi bəy Hacıbababəyov tərəfindən iqtibas edilmiş "Yezid ibn Müaviyə" adlı faciə mövqeyi-tamaşaya qoyuldu.

Son günlərdə yek-digərini mütəaqib [bir-birinin ardınca] Hökumət Teatrosu türk aktyorları tərəfindən oynanmaqda olan dramalar kimi, bu əsərə də istər səhnəcə, istər tərtibat və əlbisəcə artıq əhəmiyyət verilmiş, artistlər də lazımınca hazırlanmışdı. Lakin oyun yenə bir növ quru və soyuq keçdi. Bunun da təqsiri "Yezid ibn Müaviyə" əsərinin sənətkaranə yazılmadığı idi.

"Yezid ibn Müaviyə" hər nə qədər teatro surətinə vəz edilmişsə də [qoyulmuşsa da], həman romandan xaricə çıxılmamış, romanın ruhu onda baqi qalmışdır. Bu hal aktyorları təzyiq etdiyindən, ümumiyyətlə oyun soyuq keçirdi.

Soyuqluq da o qədər olurdu ki, pərdələrin sonunda artistlər pək də alqışlanmayırdı. Hər nə qədər bəziləri kəndi alqışları ilə bu təsiri pozmaq, tamaşaçılar bununla bərabər artistlərə bir ruh verməyə çalışırdılarsa da müvəffəq olammayırlardı.

Artistlərin oyunu xüsusunda bir bu qədərə kifayət etmək istəyiriz ki, Sidqi [Ruhulla] – Yezid rolunda, Rüstəm Kazımov – Şümür rolunda, Abbas Mirzə [Şərifzadə] – Əbdürrəhman rolunda, Həsən Səbri Abdulla[zadə] – Ziyad rolunda, Olenskaya – Salma rolunda, Rza Darablı – Amir rolunda yaxşı idilər.

*Tamaşaçı*

**"Nadir şah"**

Bu gün cümə günü təşrini saninin (noyabrın) 7-də axşam Dövlət Teatrosunda N. Nərimanovun 4 məclis, 7 şəkildə yazmış olduğu "Nadir şah" draması mövqeyi-tamaşaya qoyulacaqdır. Tamaşa axşam saat 8 tamamda başlanacaqdır.

Gələcək tamaşa təşrini-saninin (noyabrın) 11-də "Trablis müharibəsi, yaxud Ulduz". Mövqeyi-tamaşaya qoyulmaq üçün hazırlanır: "Siyavuş", "Əlmənsur", "Qaçqınlar", "Otello", "Hamlet".

**Xiromant**

Kitablar müəllifi: "Gizlini bilmək" və "Xiromantiya təcrübəsinin əsasları" A. K. Xodunov ancaq əllərin xəttləri ilə insanın xasiyyətini, keçmişini, hal-hazırını və gələcəyini söyləyir. Qəbul edir hər gün saat 10-dan 4-ədək. Katibdən xəbər almaq və yazılmaq olar.

Ünvan: Mariinski küçə nömrə 18, Gimnaziçeskinin küncündə.

*14018*

**Otaq axtarıram**

Krımlı gənc bir müsəlmana bir otaq lazımdır. Otaq əvəzinə ailə çocuqlarına türkcə, rusca və ərəbcə dərs verə bilər.

Adres: "Təbriz" mehmanxanası nömrə 13.

*14014*

**Xəzər dənizində posta, sərnişin və yük gəmilərinin hərəkatı**

*Bakı-Ənzəli*

15-ci körpüdən səşənbə [çərşənbə axşamı], cümə və bazar günləri saat 4-də.

*Bakı-Tazəşəhər (Krasnovodsk)*

15-ci körpüdən düşənbə [bazar ertəsi], çaharşənbə və cümə günləri saat 5-də.

*Bakı-Salyan*

19-cu körpüdən bazar, səşənbə, çaharşənbə və cümə günləri saat 4-də.

*Bakı-Ənzəli-Şahsavar-Məşhədsər-Bəndər Gəz və geri*

17-ci körpüdən çaharşənbə günü saat 4-də.

*Bakı-Həsənqulı-Bəndər Gəz-Məşhədsər və geri*

17-ci körpüdən səşənbə günü saat 4-də.

*Petrovsk-Fort-Aleksandrovsk-Quryev və geri*

Paroxodlar Petrovskdan pəncşənbə [cümə axşamı] günləri saat 4-də çıxırlar.

*Bakı-Lənkəran-Astara*

17-ci körpüdən düşənbə, səşənbə və şənbə günü saat 4-də.

*Bakı-Petrovsk*

15, 24 və 25-ci körpülərdən səşənbə, pəncşənbə və şənbə günləri saat 4-də.

*T-178*

**Xüsusi müsəlman təvəllüdxanası Gövhər xanım Qazızadə**

Vəzi-həml edənlər hər bir vaxt, gələn xəstələr isə hər gün səhər saat 10-dan 2-yə kimi qəbul edilirlər. Təvəllüdxanada əməliyyati-cərrahiyyə (operasiya) icra edilib, doktor Tsentner konsultasiya yapır. Feldşeritsa-mama Vasserman çiçək döyür, yara bağlayır və iynə vurur. Adres: Armyanski küçə nömrə 13. Telefon nömrə 58-39.

*T-321*

**Berlin Darülfünunu doktoru S. İ. Kopelioviç**

Daxiliyyə və əsəbiyyə naxoşluqları. Qəbul edir səhər saat 10-dan 1-ədək, axşam saat 5-dən 7-yədək. Elektrik müalicəsi, 606 və 914 müalicəsi və qeyriləri.

Adres: Vorontsovski küçə nömrə 17, 2-ci mərtəbə. Telefon nömrə 50-28 və 93.

*11449*

**Doktor M. İ. Lurye**

Əmrazi-zöhrəviyyə və daxili naxoşluqları qəbul edir. 914 və 606 müalicəsi. Qəbul edir hər gün səhər saat 8-1-ədək; axşam saat 4-7-yədək. Ünvan: Vorontsovski küçə, nömrə 45, Bandarnının küncündə, yolu Bandarnıdan, nömrə 8, 3-cü mərtəbə. Telefon: 17-06 və 52-36.

*7406*

**İstanbul doktor və bakterioloqu Nazim bəy Hüseynzadə**

Sifilis, terbier, şankr və daxiliyyə naxoşluqları, 914 və 606 müalicələri tətbiq edilir.

Qəbul olunur səhər saat 9-dan 10-adək, axşam saat 6-dan 7-yədək. Ünvan: Voronsovski küçə, nömrə 17, doktor Qarabəyovun müalicəxanası. Telefon nömrə: 49-87.

*1470*

**Diş həkimi S. M. Hamburq**

Təzə işlər, qızıl, kauçuk, platina üzərində dişlər qayırılır. Qəbul olunur saat 9-dan 2-yədək, 4-dən 6-yadək. Nikolayevski caddə 21, Parlaman qarşısında. Telefon 5-96.

*9056*

**Professor Buyneviçin müsəkkər [sakitləşdirici] kabinetinin sabiq assistenti Doktor Q. Musaelyans**

Ürək, mədə, bağırsaq və qeyri daxiliyyə naxoşluqları qəbul edir səhərlər 9-dan 12-yədək, axşamlar 5-dən 7-yədək. Ünvan: Karantinni və Bolşoy Morskoy küçələrin küncündə (Telefonnı küçənin başında). Telefon: 40-22.

*11446*





**Diş müalicəxanası D. İ. Zeylidzon**

Xüsusi qızıl və platina işləri. Kötük və körpülər və farforlar. Dişlərin ağrısız çəkilməsi. Qəbul olunur məhzən növbətə yazılmaqla səhərlər saat 9-dan 2-yədək, axşamlar saat 5-dən 7-yədək. Ünvan: Malakanski küçə, ev nömrə 1. Telefon nömrə 19-55.

*11442*

**Doktor İ. M. Bronşteyn**

Xüsusi əmrazi-zöhrəviyyə, dəri və daxiliyyə naxoluqları qəbul edir. Hər gün səhər saat 10-dan 1-ədək; axşam saat 4-dən 7-yədək. Şamaxinka 12, telefon 4-21.

*14003*

Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti [Sosial Təminat Nazirliyi] Gəncə quberniyasında kənd təbiblik vəzifəsi üçün təbibləri dəvət edir bu şərtlərlə: məvacib ayda 2,900 rublə; təyin olana yol və qeyri xərclər – subaylara aylıq məvacibin ¼ hissəsi və külfətlilərə məvacibin yarısı, təyin olunan yerəcən yol xərci də verilir. Arzu edənlər kənd tibb şöbəsinə müraciət etməlidirlər. (Naberejnaya küçə, nömrə 33).

*T-309*

***Müdir:***
***Hacıbəyli Üzeyir***

## QEYD VƏ ŞƏRHLƏR

**Bakı Müsəlman Cəmiyyəti-Xeyriyyəsi...**

səh. 143. "Vrangelski": Bakıda, indiki Əhməd Cavad küçəsi.

"Spasski": Bakıda, indiki Zərgər-palan küçəsi.

**Mühəndis Ağalar bəy...**

səh. 143. "Starı polis": Bakıda, indiki Yusif Məmmədəliyev küçəsi.

"Baryatinski": Bakıda, indiki Əbdülkərim Əlizadə küçəsi.

**Dövlət Teatrosu**

səh. 143. "Trablis müharibəsi və yaxud Ulduz": Cəfər Cabbarlının Osmanlı tarixinə dair pyesi.

"Əlmənsur": Alman şairi Henrix Heynenin faciə əsəri.

"Dövləti-bisəmər": İsmayıl bəy Rüstəmbəyovun səhnə əsəri.

"Qaçaqlar": Alman dramaturqu Fridrix Şillerin əsəri.

**Teleqraf xəbərləri**

səh. 145. "6 təşrini-sani": qəzetdə səhvən "6 təşrini-əvvəl" getmişdir.

**Qəzetələrdən**

səh. 148. "Tan": 1861-1942-ci illərdə Parisdə fransız dilində nəşr edilmiş gündəlik "Le Temps" qəzeti nəzərdə tutulur.

səh. 149. "Polis müdaxilə edib": qəzetdə "müdaxilə" yerinə "müdafiə" getmişdir.

**İran işləri**

səh. 150. "Çenin məlum...": "Belə məlum olur ki, Azərbaycan dövləti şahsevənləri İran dövlətinə qarşı üsyana dəvət və təşviq etməkdədir." (farsca)

**Bələdiyyə vəkilləri seçkisi**

səh. 152. "istehqaqlı (senzovik) Bələdiyyə Məclisi": yalnız müəyyən şərtləri daşıyan şəxslərin, xüsusən şəhərdə müəyyən qədər əmlaka sahib olanların seçilmək hüququna malik olduğu Məclis.

**Hekayət**

səh. 154. "Süleyman Salman oğluna tərəf döndü": qəzetdə "Salman Süleyman oğluna tərəf döndü" getmişdir.

"Mart hadisatı": 1918-ci ilin Mart hadisələri, bolşevik və erməni daşnak quldurlarının Azərbaycan xalqına qarşı törətdikləri soyqırım nəzərdə tutulur.

"Süleyman Salman oğlu buna razı oldu": qəzetdə "Salman Süleyman oğlu buna razı oldu" getmişdir.

səh. 155. "o könüllünün Məşhədi Murtuza olduğunu anladım": qəzetdə "Məşhədi Murtuza" yerinə səhvən "Məşhədi Fərəc" getmişdir.

**Nəzarətlərdə**

səh. 157. "edadi məktəbləri": təhsildə ali məktəbdən əvvəlki mərhələyə məxsus olan, şagirdləri ali məktəbə hazırlayan məktəblər.

"Səlimə xanım Xuramoviç": güman ki, "Sara xanım Xuramoviç" olmalı idi.

**Çörək bahalanması haqqında**

səh. 159. "yaddan çıxarmağa yol verir": qəzetdə "verir" yerinə "verməyir" getmişdir.

**Bakı xəbərləri**

səh. 161. "Nijni-Priyutski": Bakıda, indiki Süleyman Rəhimov küçəsi.

**Azərbaycanda**

səh. 163. "Xocabəyli quldurları": Xocabəyliləri Şahsevənlərin bir tayfası idi.

**Teatro və musiqi**

səh. 167. "Tamaşaçı": bu imza Seyid Hüseyn Sadıqzadəyə məxsusdur.





**Bazar, 9 noyabr 1919-cu il, nömrə 317**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Yekşənbə, 15 səfərül-müzəffər sənə 1338. 9 təşrini-sani 1919 sənə.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 3 manat.**

**Abunə şəraiti: Qeyri şəhərlər üçün 1 aylığı 70 rublə, 2 aylığı 130 rublə, 3 aylığı 180 rublə. Bakı üçün 1 aylığı 60 rublə, 2 aylığı 110 rublə, 3 aylığı 150 rublə. Abunə şəraiti ancaq həmin sənə yanvar ayının 1-nədək heasb olunur.**

**Elan fiatı: birinci səhifədə sətri 8 rublə, axırıncı səhifədə sətri 6 rublə, itən şeylər və yer axtaranlar üçün 4 rublə axırıncı səhifədə, 6 rublə birinci səhifədə.**

## SİRK "MODERN"

Yekşənbə günü noyabrın 9-nda 1919-ncu ildə məşhur sportsmen Pyotr Nikolayeviç Yelizarov tərəfindən mükəmməl surətdə təşkil edilmiş Fransa güləş mübarizəsinin mabədi [ardı].

Bu gün 3 cift pəhləvan mübarizə edir.

1-nci: Qəti mübarizə Kalişeviç – Buyvolov; 2-nci: Naməlum tələbinə görə Naməlum – Zakoroyko; 3-ncü: Raqenbaum – Yemelyanov.

Pəhləvanların çıxışı və mübarizənin başlanması saat 11-in yarısında. Tamaşa başlanacaq 8-də. Mübarizə Yelizarovun təhti-nəzarətində [nəzarəti altında] olacaqdır.

Elan: Bu günlərdə dünyada ən məşhur pəhləvan Boqatıryovun benefisi olacaqdır.

*14023*

## BAKI MÜSƏLMAN PARAXODÇULARININ CƏMİYYƏTİ

Petrovski körpüdən Lənkəran və Astaraya hər gün saat beşdə paraxod gedir. Yük və sərnişin həmin körpüdə qəbul olunur. Biletlər dəxi orada satılır. Ənzəli, Məşhədsər, Bəndər Gəz, Həsənqulı, Gümüştəpə, Ləngərud, Rudsər və Şahsavara dəxi həmin körpüdən yük qəbul olunur.

Noyabrın 12-sindən Salyana yük və sərnişin paraxodu işləyəcəkdir.

Cəmiyyətin kontoru Dəniz qırağında, Rəsulovun kontorunda. Telefon nömrəsi: 3-88 və 57-61.

*Bakı Paraxodçular Bürosu*

*14026*

## GÜRCÜSTAN-ERMƏNİSTAN ETİLAFI

Gürcüstan və Ermənistan cümhuriyyətlərinin həyati-siyasiyyəsində 3 təşrini-sani şayani-diqqət [diqqətəlayiq] bir tarixədd [hesab] oluna bilər.

Gürcüstan-Ermənistan arasındakı müzakirati-sülhiyyə eyi bir surətdə davam edib, nəticədə bir etilafa müncər oldu [razılaşma ilə nəticələndi].

Hər iki cümhuriyyət həyatında müsbət və vəlud [səmərəli] bir surətdə başlayan mükalimati-siyasiyyənin [siyasi danışıqların] gələcəkdə daha da ümidbəxş bir nəticəni istihdaf edə biləcəyi [hədəfə götürə biləcəyi] qənaəti verməkdədir.